SƏRDAR CƏLALOĞLU

KİRPİ PİYİ, YARPIZ İYİ, MƏRCİMƏK...

(TÜRKƏÇARƏ)

Bakı • Yazıçı • 1994

Sərdar Cəlaloğlu

KİRPİ PİYİ, YARPIZ İYİ, MƏRCİMƏK...

(TÜRKƏÇARƏ)

Redaktoru: MUSA AXUNDOV
Rəssamı: ETİBAR İSMAYILOV

Məmmədov S.

M 52 Kirpi piyi, yarpız iyi, mərcimək
Türkəçarə. B. Yazıçı, 1994 - 116 səh.

Kitab min illərin sınağından çıxmış türkəçarədən və türkəçarənin bir qolu olan ovsun təbabətindən bəhs edir.

Kitabda el-obadan toplanmış materiallardan geniş istifadə olu–nub. Bu materiallar həm tibbi, həm də etnoqrafik mənbə kimi çox maraqlıdır.

M - 4703 100000 - 02
M 564-94 60-94

Nəşriyyat direktoru: ƏKRƏM ƏYLİSLİ

© Yazıçı, 1994

MÜNDƏRİCAT

ÖN SÖZ 6
TƏBABƏTİN SİMVOLU VƏ TÜRKƏÇARƏ 9
OVSUN 13
TÜRKƏÇARƏNİN DİGƏR SAHƏLƏRİ 40
ETNOETİOLOGİYA VƏ DİAQNOSTİKA 48
RESEPTLƏRİN YARANMA YOLLARI 54
MÜALİCƏ ÜSULLARI 57
TÜRKƏÇARƏDƏ BİTKİ MƏNŞƏLİ RESEPTLƏR 60
HEYVAN MƏNŞƏLİ RESEPTLƏR 89
QUŞ MƏNŞƏLİ RESEPTLƏR 97
HƏŞƏRAT MƏNŞƏLİ RESEPTLƏR 99
İNSAN MƏNŞƏLİ RESEPTLƏR 102
MƏİŞƏT MƏNŞƏLİ RESEPTLƏR 103
YEMƏK VƏ ƏDVİYYA MƏNŞƏLİ RESEPTLƏR 105
MİNERAL MƏNŞƏLİ RESEPTLƏR 107
SON SÖZ 110
İZAHLI LÜĞƏT 111
TÜRKƏÇARƏÇİLƏR (INFORMATORLAR) HAQQINDA MƏLUMAT 116

Xalqı sevmək üçün
onu yaxından tanımaq lazımdır

Xalqa təmənnasız xidmət edib, təqiblərə
məruz qalmış bütün loğmanlara və
10 sağlam uşaq böyüdüb, ərsəyə çatdırmış anam
GÜLSÜM *xanıma ithaf edirəm.*

ÖN SÖZ

Elə bir mədəni ölkə tapılmaz ki, orada xalq təbabəti öyrə–nilməsin. Bir çox ölkələrdə xalq təbabətini öyrənən institutlar, elmi mərkəzlər vardır. Bolqarıstanda ən böyük xəstəxanalardan biri xalq təbabəti əsasında qurulmuşdur. Xalq təbabəti Azərbaycanda da diq–qətdən kənarda qalmamışdır və bu sahəyə neçə-neçə elmi əsər həsr edilmişdir.

Xalq təbabəti xalqın etnik tərkibindən, dünyagörüşündən, həyat tərzindən, yaşadığı coğrafi mühitdən və qonşu etnosların mədəni təsirindən asılı olaraq daimi təkmilləşmə yolu keçir və qiymətli biliklər mənbəyinə çevrilir. Bu gün biz bir çox elmi kəşflərə görə xalq təbabətinə borcluyuq.

Azərbaycan xalq nağılı «Ağ atlı oğlan» da ağır xəstələnmiş şahı sağaltmaq üçün «adı başına, dadı başına» deyə-deyə ov heyvanının başını kəsirlər. Həmin heyvanın başından hazırlanmış xörək şahı sağaldır. Burada müasir təbabətin gəldiyi qənaətlərlə səsləşən bir informasiya var. Yaponlar araşdırmışlar ki, qədim Tibet təbabətində bəzi xəstəlikləri, xüsusən baş xəstəliklərini və sınıqları sağaltmaq üçün mal kəlləsindən dərman kimi istifadə edilmişdir. (Bu üsul türkəçarədə də geniş yer tutur). Mal kəlləsinin iç dərisində beyin xəstəlikləri üçün əvəzsiz dərman olan aminolon, kampolon kimi nadir maddələrin toplandığı aşkar edilmişdir.

«Xalq təbabəti» ifadəsi iki mənada işlənir:

a) pulsuz səhiyyə xidməti;

b) hər hansı bir xalqa məxsus təbabət.

Buna etnotəbabət deyirlər.

Etnotəbabətin iki forması vardır. Birinci forma empirik təbabət adlanır. Empirik təbabətin özünəməxsus məktəbləri, alimləri, başlıcası isə yazılı ədəbiyyatı vardır. Empirik təbabətin klassik nümunəsi Tibet, Buryat, Çin, Hind təbabəti, İbn Sina tibb məktəbidir.

Bu məktəblərin sağlamlıq və xəstəlik haqqındakı baxışları və müa–licə üsulları bir-birindən köklü şəkildə fərqlənir. Empirik təbabətin müalicə üsullarından bugünkü elmi təbabətdə geniş istifadə edilir.

Xalq təbabətinin ikinci forması şifahi xalq təbabətidir. Min illər boyu ağızdan-ağıza keçərək yaşayan bu təbabətin müəllifi geniş xalq kütlələridir. Azərbaycanlılar arasında xalq təbabətinə verilmiş ad türkəçarədir. Bu söz ilk növbədə etnosun, xalqın adını bildirir. Mahmud Kaşqarinin göstərdiyi kimi, «türk» sözünün bir mənası da «sadə» deməkdir. Deməli, türkəçarə — türk etnosunun təbabəti və ya sadə, ibtidai təbabət mənalarını verir.

Türkəçarə söz biləşməsindəki «**çarə**» sözünə yaxın olan «çor», «çər» sözləri qədim türk mifologiyasında insan bədənində yaşayan və bəzən onda xəstəlik əmələ gətirən ruhun adıdır ki, «türkəçarə» sözünün bu ruhla əlaqədar yaranması faktına da diqqət yetirmək lazımdır.

Türkəçarə bitkin bir sistemdir. O, **etmiologiya** (xəstəliklərin əmələ gəlmə səbəbləri), diaqnozlaşdırma (xəstəliklərin aşkar–lanması), proqnoz (xəstəliklərin gələcək gedişi), differensasiya (xəstəliklərin bir-birindən ayrılması), nozologiya (xəstəliklərin adlandırılması), klassifikasiya (xəstəliklərin təsnifi) və s. kimi sahə–ləri əhatə edir. Türkəçarədə elmi təbabətdəki ***ex juvantibus*** (müalicənin təsiri ilə diaqnozlaşdırma) kimi nadir üsullardan, müasir psixoterapiyanın müalicə üsulları — hipnoterapiya, özünütəlqin və s. ilə səsləşən ovsun ayinlərindən istifadə olunur.

Türkəçarədə müalicə vasitələrinin tətbiqinə dair mütləq göstərişlər yoxdur. Çox vaxt türkəçarəçi «filan dərdə filan ot kömək edir», «filan xəstəlikdə filan təpitmə mənfəətlidir», «filan ağrıları buxar verməklə kəsmək olur», «filan dərdə filan otun qaynatması kömək edir» və s. kimi məsləhətlərlə kifayətlənir. Əgər xəstəlik dəqiq müəyyən edilmişsə və həmin xəstəliyə qarşı dəfələrlə sınaqdan

çıxmış müalicə vasitəsi varsa, onda türkəçarəçi xəstəni sağaltma əməliyyatına başlayır.

Türkəçarədə öyrənilməmiş cəhətlər, açılmamış sirlər çoxdur. Biz heç də bütün cəhətləri əhatə etmək, bütün sirləri açmaq iddiasında deyilik. Sadəcə olaraq, çalışmışıq ki, ağızdan-ağıza keçərək yaşayan türkəçarə hikmətlərini necə varsa, eləcə toplayıb yazıya alaq, gələcək tədqiqatçılara ərməğan edək.

Xatırladırıq ki, istifadə etdiyimiz materiallar Naxçıvan MR ərazisində yaşayan, fəaliyyət göstərən türkəçarəçilərdən toplan–mışdır.

TƏBABƏTİN SİMVOLU VƏ TÜRKƏÇARƏ

İlanın tibbin simvolu kimi qəbul edilməsi eramızdan əvvəl XXII əsrə təsadüf edir. Arxeoloji qazıntılar nəticəsində tapılan və həmin dövrə məxsus olan bir kubokun üzərində ilan təsvirinə rast gəlinmişdir. Kubokun Gudeanın (təxminən e.ə. 2144–2124 - Cənubi Mesopo–tamiyadakı **Laqaş** şəhər-dövlətinin hökmdarı) şəxsi yaşıllıq və sağlamlıq ilahı **Ningişzidanın** şərəfinə hazırlandığı aşkar edilmişdir. Bəzi tədqiqatçıların fikrincə, kubokda ilanın təsviri onun xəstəlik və sağlamlıq mənbəyi kimi qəbul edilməsi, ilan zəhərinin həm ölüm, həm də şəfa gətirməsi ilə əlaqədardır. Bir sıra alimlər isə tibb simvolunun sirrinin qədim yunan mifologiyasında gizləndiyini iddia edirlər. Bu onunla bağlıdır ki, yunanların müalicə allahı Asklepiosun əsas atributu ilandır.

Başqa xalqlara məxsus miflərdə də ilan kultu geniş yer tutur. Qədim Misir mifologiyasına görə, günəşin və yerüstü qayda-qanununun düşməni olan ilan Apop allahdır və o, yeraltı dünya olan Duatda məskunlaşırdı. O, həm də ölülər və dirilmə tanrısı Osirisin belinə dolaşıb onu ovsunla qoruyub müalicə edirmiş. Mexen - böyük ilan baş tanrını yeraltı dünyada müşayiət edirmiş.

Qədim Şumerdə mifik əjdaha — Asaqa xəstəlik iblisi imiş və o, Kurla (**Kur** Şumer mifologiyasında ilk əjdaha sayılır) ibtidai okean Abzu ilə yer arasındakı boş məkanda — yeraltı dünyada yaşayırdı.

Qədim Elamda ilandan ovsun vasitəsi kimi geniş istifadə edilmişdir.

Qədim Çində ilan-məhsuldarlıq allahı, əjdaha - qəbrin mühafizə–çisi, çay, quyu, ildırım və bitki allahı hesab edilmişdir.

Türk mifologiyasının bərpası (rekonstruksiyası) ilə məşğul olan alimlər Qara Yol Tanrısı adlı qədim mifoloji obrazın mövcudluğunu aşkar etmişlər. Qara Yol Tanrısı onun şərti adıdır. O, qara rəngi simvolizə edir (qara həm də şərin simvoludur) və qara yolun sahibidir.

Qara Yol Tanrısı bədxah tanrı kimi yeraltı aləmdə yaşayır. Bu tanrının adının çəkilməməsi və birinci dərəcəli tanrılar panteonuna daxil olmaması həmin tanrının tabulaşdırıldığını sübut edir. Fikrimizcə, qədim türk mifologiyasında tabulaşdırılmış Qara Yol Tanrısı məhz ilandır.

Bu fikri bu gün xalq arasında yaşayan bəzi inanclar da təsdiq edir. Tabulaşdırılmış (yasaq edilmiş) heyvanın adını çəkmək qada–ğandır. Əgər adı çəkilərsə, dərhal ovsun oxunur ki, tabu (yasaq) ziyan yetirməsin. Belə bir inam var ki, tabunun adı çəkiləndə o, mütləq həmin yerdə peyda olur. *«Adını çək, qulağını bur»*, *«qurd dedin — qulağı çıxdı»* ifadələrində bu qədim inamın izləri yaşamaqdadır. Azərbaycan türklərinin inamına görə, ilanın da adı çəkilməzmiş. Adı çəkildikdə isə mütləq xüsusi ovsun oxunarmış.

İlanın tabu olması belə bir lənətlənmədən də aydın görünür: *«İlanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdırmayana lənət».* Tabunun pozulması ilkin inamlara görə mütləq fəlakətlə nəticələnir. Əgər tabu pozularsa, o, xətər verməsin deyə dərhal məhv edilməlidir. Tabu məhv edildikdən sonra yeraltı aləmə göndəril–məlidir, yəni basdırılmalıdır ki, onun ruhu daha intiqam ala bilməsin.

İlanın Qara Yol Tanrısı olmasını təsdiq edən daha bir sübut ilanın təbii yaşayışı ilə Qara Yol Tanrısının yaşayışının eyniyyət təşkil et–məsidir: onlar yerin altında yuva salırlar.

«Qara yol» dedikdə o dünyaya yol nəzərdə tutulur. Məsələn, azərbaycanlılarda qarğış variantı olan «cəhənnəm-qara yola gedəsən»

ifadəsində islam cəhənnəmi ilə yanaşı, əski mifoloji təsəvvür də yaşayır. Məlumdur ki, türk mifologiyasına görə tanrılar panteonu üç yerə bölünür: göy aləmi, yerüstü aləm və yeraltı aləm. Göy aləmində gün, ay, ulduz kimi tanrılar; yer üstündə yiyələr (sahiblər) və ya hamilər, məsələn, su hamisi, meşə hamisi və s.; yer altında bədxah ruhlar və ölülərin ruhları yaşayır. Göy tanrıları ilə yeraltı tanrılar əbədi mübarizədədirlər. Bu baxımdan gecənin şər, gündüzün xeyir kimi qəbul edilməsi inamı yaranmışdır. Bu əbədi mübarizə yeraltı tanrılardan olan ilanın göy tanrısı ulduzla mübarizəsinə də aiddir. Ona görə də xalqda belə bir inam var ki, «ilan ulduz görməsə ölməz». İlanın yeraltı aləmlə — şər ruhlarla əlaqəsini belə bir fakt da sübut edir ki, bu günə qədər Orta Asiya türkləri uşaqların xalatlarının kürək nahiyəsinə ilan rəmzi tikirlər ki, şər ruhlar uşağı özününkü qəbul edib ona xətər yetirməsinlər. Qədim dövrlərdə türk şamanları öz ayinlərində yalın əlləri ilə zəhərli ilanları boğmağı imitasiya edirmişlər. İlanın ulduzla mübarizəsi belə bir inama da söykənir ki, qədim Türk–Çin dünyagörüşünə görə ulduzlar ruhların və qəhrəmanların məskənidir və uzaq məsafədən insanların talelərinə təsir edir.

Türk mifologiyasında ilan Qara Yol sahibi kimi də təqdim olunur. Əksər nağıllarımızda, o cümlədən «Məlikməmməd» nağılın–da qaranlıq dünyaya gedən yolların quyulardan keçdiyi təsvir olunur. Adətən belə quyularda əbədi məskən salmış əjdaha–ilan qəhrəmanla mübarizə aparır. Bu inamın yaranması ilanın təbii həyatı ilə bağlıdır. İlanın yer altında yuva qurması onun yeraltı dünya ilə əlaqələndirilməsinə səbəb olmuşdur.

Beləliklə, mifologiyada geniş yer tutan ilanın tibb simvoluna çevrilməsi aşağıdakı səbəblərdən meydana gələ bilərdi:

1. Məlumdur ki, xalq təbabətində ilanın dərisindən, yumurtasından, ətindən müalicə məqsədilə istifadə olunur. Həmçinin qeyd etdiyimiz kimi, ilan zəhərinin müalicəvi təsiri də çoxdan

məlumdur. Lakin bu, ilanın tibbi simvola çevrilməsinə əsas vermir. Çünki ilana nisbətən daha çox müalicə vasitəsi kimi istifadə edilən heyvan və bitkilər var, ancaq bunların heç biri simvol kimi qəbul edilməmişdir.

2. İlanın təhlükəli canlı olması, bəzi hallarda onun xəstəlik törədən qurdla eyniləşdirilməsi onu təbabətin simvoluna çevirə bilərdi. Ancaq bu dəlil də çox asanlıqla təkzib ediləndir.
3. Ən inandırıcı dəlil təbabətin ovsunla birgə doğulması və ilanın ovsunçuluqda mühüm yer tutması ilə bağlıdır. Ovsunçu istifadə edəcəyi otları toplayarkən tez-tez ilanla rastlaşmış, bu da mifoloji təsəvvürdə ilanın dərman bitkilərinin hamisinə, sonradan isə təbabətin hamisinə — simvoluna çevrilməsinə səbəb olmuşdur. Təsadüfi deyil ki, qədim Şərqin digər xalqları ilə müqayisədə Azərbaycan türklərinin maddi mədəniyyət abidələrində ilanla bağlı nümunələr daha çoxdur.

OVSUN

İbtidai insan təbiətlə mübarizədə aciz qalıb, şeytanın gücünə inanmağa başlamışdır, xəstəlik və ölümü şər ruhların əməli hesab etmişdir. Ruhlar dünyası kahinlərin məşğuliyyət sahəsi olduğuna görə, müalicə işi də onların əlində cəmlənmiş və ilk kahin - şaman ilk həkimə çevrilmişdir. Ruhlarla mübarizədə kahinlər ovsun ayinlərindən geniş istifadə etmişlər və bu ayinlər zaman-zaman qorunub saxlanmışdır.

Türkəçarədə ovsun ilk növbədə vurğun, hal anası, şeşə, şəppə, çor, cin, şəyatin və s. kimi xəstəlik və ölüm törədən qüvvələrdən qorunmaq üçün bir vasitədir.

Vurğun

Belə hesab edirlər ki, bu ruh tək ağac altında, su kənarında, körpü altında yaşayır, digər ruhlar kimi yalnız hava qaralandan sonra fəaliyyətə başlayır. Vurğun tək ağac altından keçən və ya belə yerdə yatan adamlarda, şər vaxtı körpüdən keçən və suyu murdarlayan adamlarda xəstəlik yaradır. Bu hal «vurğun vurub» ifadəsilə təsvir olunur. Vurğun vuran adam çox vaxt yerindəcə ölür və ya bir müddət dilsiz-ağızsız yaşayır. Vurğunun əsas əlaməti - vurulan adamın qa–ralması və ya bədənində vurğunun *«əl yeri»*nin (dəridə əl şəklində qaralma) müşahidə olunmasıdır.

Xalq arasında təsvir edilən bu patoloji vəziyyət elmi təbabətdə infarkt, insult və asfiktik ölüm adlanan vəziyyətə uyğun gəlir. Vurğun vurma el arasında ən ağır xəstəlik sayılır və bu xəstəliyi sağaltmağa heç də hər türkəçarəçi ürək eləmir.

Hal anası

Bu ruh qadın şəklində, uzun saçlı, döşləri dizinə çatan bədheybət varlıq kimi təsvir olunur. Əsasən, doğan qadınların yaşadığı evlərin damında, astanasında fürsət gözləyir. Zahılıq dövründə zahıya, yeni doğulmuş körpəyə xətər yetirir. Deyirlər ki, Hal anası qadını çay

kənarına aparıb, ciyərlərini çıxarıb suya çəkir və yeyir. Hal anası bəzən zahını çağırır, bəzən də zahının gözünə görünüb onu öz arxasınca aparır.

Təsvir olunan patoloji vəziyyətlər hamiləlik və doğuş psixozları, ruhi pozğunluqlar, görmə və eşitmə hallüsinasiyaları və s. hallara müvafiqdir. Hal anasına qarşı profilaktika və müalicə ovsunlarından istifadə olunur.

Şeşə

Xalq arasında bəzən yarasa kimi təsəvvür olunur. Yeni doğulmuş uşaqlarda xəstəlik törədir və belə uşaqlar «şeşəli» adlanır. İnama görə, uşaq doğulan kimi evə girən şeşə (yarasa) uşağı vurur. Şeşəliyin əsas əlaməti yüksək hərarətin və damaq nahiyəsində balaca ağ nöqtənin əmələ gəlməsidir. Uşağı xilas etmək üçün türkəçarəçilər həmin ağ nöqtəni təmizləyirlər. Şeşəli uşaqlar əksər vaxt ölür.

Şeşə vurmaq elmi təbabətdə yeni doğulmuş uşaqlarda istilik tənziminin pozulması vəziyyətlərinə uyğun gəlir. Şeşəyə qarşı bir çox profilaktik ovsun ayinləri vardır.

Şəppə

Bu ruhun xalq arasında aydın təsviri yoxdur. Törətdiyi xəstəlik «şəppəli» adlanır. Adamda ürəkkeçmə, qıcolma, ağızdan köpük gəlmə, ağzın, gözün əyilməsi bu xəstəliyin əlamətidir.

Şəppənin törətdiyi vəziyyətlər epilepsiya, müxtəlif ürək qüsurları, iflic və s. ilə əlaqədardır.

Cinlər, şəyatinlər

Təsəvvürə görə, hər yerdə yaşayırlar. Onlara daha çox evlərin astanasında rast gəlmək olur. Ailə şəklində təsvir olunurlar. İnsanların pis hərəkətləri və ehtiyatsızlığı onlara ziyan verdikdə (məsələn, astanaya qaynar su atıb, cinlərin balalarını yandırdıqda) xəstəlik törədirlər. Əsasən, psixi xəstəliklərin və tutmaların səbəbkarı hesab edilirlər.

Çor

Xəstəlik yaradan ruhdur. «Canına azar, çor olsun» ifadəsində bu ruha işarə olunur. Çorla bağlı bəzi bitki xəstəlikləri (qara çor, ağ çor) vardır. Anadolu türklərinin təsəvvürünə görə, çor ruhu insanın oynaqlarında yaşayır, bədənə yayılıb xəstəlik törədir. Çora yaxın olan «çər» ruhu isə heyvanlarda xəstəlik törədir. Məsələn, «at çərlədi» ifadəsində həmin xəstəliyə işarə olunur.

Yel

Bu ruh adi yel (revmatizm), sevda yeli (ekzema), qızıl yel (erzipelas), təzyiq yeli (hipertoniya) və s. kimi xəstəliklər törədir.

Çiçək

Tatarlarda «Çiçək anası» adlı ruh haqqında məlumat vardır. Çiçək xəstəliyi türkəçarədə həmin ruhla əlaqələndirilir.

Çilə

İnama görə, təzə gəlinlər, yaxud zahı qadınlar bir-birilə üz-üzə gələrkən, həmçinin yasdan çıxıb yeni doğulmuş uşağın üstünə gedərkən və s. hallarda müəyyən xəstəliklər yaranır ki, el arasında buna «çiləbasma» deyilir. Çiləbasmaya aid edilən patoloji vəziyyətlər uşağın ilk dövrlərinin patologiyalarına (gec yerimək, gec dil açma, hipotrofiyalar, sümükləşmə proseslərinin pozulmaları və s.) uyğun gəlir. Çilə ruhuna qarşı bir sıra profilaktik və müalicəvi ovsunlar vardır.

Bədnəzər

Xalq arasında belə bir inam vardır ki, bəzi adamlar baxışları ilə uzaq məsafədən adamlara bədbəxtlik və xəstəlik gətirə bilirlər. Çox vaxt qəfil xəstələnmə halları, travmatizmlər bədnəzərlə əlaqələndirilir.

OVSUN AYİNLƏRİ

Ovsun ayinləri müxtəlif formalarda icra olunur. Sadə, primitiv ayinlərin həyata keçirilməsi çətinlik törətmədiyi üçün onları hər bir adam icra edə bilər. Lakin elə ovsun ayinləri də vardır ki, bu zaman adamlar kütləvi halda ovsunda iştirak edirlər. Məsələn, doğuş ağır keçəndə belə hesab edilirdi ki, həmzatlar (cin və şəyatinlər) doğuşa mane olur. Ona görə bir qrup adam hamilənin yaşadığı həyətdə qəflətən hay-küy qaldırır, atəş açır, mis qab döyəcləyirdilər ki, həmzatları qorxudub hamilədən uzaqlaşdırsınlar.

İslamdan qabaq Azərbaycan şamanları ovsunçuluqla geniş şəkildə məşğul olmuşlar. Sonralar isə şamanların bu funksiyasını cindarlar — ovsunçular yerinə yetirmişlər. Ovsunçu öz fəaliyyətinə xəstəliyin səbəbini aydınlaşdırmaqla başlayır, xəstəliyə «diaqnoz» qoymaq üçün onunla tanış olur, sonra xəstəliyin səbəbini tapmaq üçün müxtəlif üsullardan istifadə edir. Şamanlar ruh aləminə «səyahət» edərək xəstəliyin hansı ruh tərəfindən törədildiyi və necə müalicə olunacağı barədə məlumat əldə edirdilər. Cindarlar isə xəstəliyi diaqnozlaşdırıb müalicə etmək üçün tas qururlar. Ovsun islam ənənələri ilə birləşdiyindən ovsunçular «kitab açmaq» üsulundan da istifadə edirlər. Geniş yayılmış «diaqnostika» ayinlərindən birində xəstə yerdə oturur, onun başına örtük salınır, qarşısına bir qab su qoyulur. Xəstənin arxasında dayanan bir nəfər əlində ərimiş mum və ya qurğuşun tutur və xəstənin başı üstündən suya tökür. Mumun və ya qurğuşunun aldığı formaya əsasən xəstəliyin törənmə səbəbini tapırlar.

Xəstəliyin səbəbi tapıldıqdan sonra ovsunçu müalicə prinsip–lərinə riayət etməklə müalicəyə başlayır.

Ovsun ayinlərində imitativ və kontakioz prinsiplərdən geniş isti–fadə olunur. Ayinlərin keçirilməsində çox vaxt bu prinsiplər birgə iştirak edir və prinsiplərin biri digərini tamamlayır.

Ovsunun imitativ prinsipini aydınlaşdırmaq üçün belə bir əfsanəyə diqqət edək:

Babam söyləyirdi ki, bir gün evdə oturmuşdum. Birdən qapı döyüldü, həyətə çıxdım. Qapını döyən yaşlı bir dərviş idi. Dərvişi evə dəvət etdim. Yedik-içdik. Sonra ordan-burdan söhbətə başladıq. Gördüm ki, dərvişin qulağı yoxdur. Mən özümü saxlaya bilməyib bunun səbəbini soruşdum. Əvvəl dərviş çox qəzəbləndi. Sonra mənə belə bir əhvalat danışdı:

Biz 40 nəfər bir kora tabe idik. Səhər tezdən hərəmiz bir tərəfə gedib, axşamüstü bir mağaraya yığışıb qazandığımızı ortaya qoyurduq. Qazancımız o qədər az olurdu ki, hətta bir axşam yeməyini də görmürdü. Başçımız kor kişi oturduğu dərinin altından bir qızıl çıxarırdı və biz o qızılla yemək alıb dolanırdıq. Bir gün səhər tezdən kor bizdən xahiş etdi ki, onu axar suyun kənarına aparaq. Biz koru yaxınlıqdakı çayın kənarına apardıq. Kor bizə tapşırdı ki, tonqal qalayaq. Tonqal yanmağa başlayanda kor çayın kənarındakı gildən kömbə düzəldib oda atdı. Kömbə qıpqırmızı olanda kor bizə dedi: *«Kim bu kömbəni yalın əlinə alıb suya atar?»*

Yoldaşlarımdan heç biri buna cəsarət etmədi. Mən irəli yeriyib kömbəni əlimə aldım və suya tulladım. Kor məni yanına çağırıb qulağıma pıçıldadı:

— Mənim ömrüm sona çatır. Bir azdan öləcəyəm. Yoldaşların elə bilir ki, mənim oturduğum yerdə xəzinə var. Mən ölən kimi onlar hər yeri axtarmağa başlayacaqlar. Sənə bir sirr açacağam. Sənin cəsarətin xoşuma gəldi, amma ağılsızlığından çox şey itirə bilərsən. Sən mağaranın ən qaranlıq küncünü qazarsan. Ordan bir vərəq yazı çıxacaq, həmin yazını oxuyub həyatda istədiklərinə çata bilərsən.

Qoca bu sözləri deyib öldü. Kor ölən kimi yoldaşlarım mağaraya cumdular. Mən də özümü mağaraya saldım. Dərviş yoldaşlarım korun oturduğu yeri qazıb xəzinə axtarırdılar. Mən də özümü saxlaya bilməyib korun dediyi küncü qazdım, kağızı tapdım. Dərvişlər bunu

gördülər, o saat üstümə yürüyüb istədilər ki, kağızı məndən alsınlar. Kağız parçalansa da, bir tikəsi mənə qaldı. Həmin parçadakı yazıları oxuyanda gözəgörünməz oldum. Bundan sonra istədiyim yerə gedirdim. Daha yemək dərdi çəkmirdim. Hər gün xanın qızı yaşayan evə girib o qızı vahiməyə salırdım. Qıza yemək gətirilən kimi ondan qabaq yeməyi yeyib qurtarırdım. Axır ki, qız bunu açıb atasına dedi. Xan vilayətdəki bütün mollaları, cindarları, tasquranları, ovsunçuları evinə dəvət etdi. Onlar nə qədər çalışdılarsa, mənə təsir edə bilmədilər. Nəhayət, xan qoca bir ovsunçunu gətirtdi. Ovsunçu üzünü evin dörd tərəfinə tutub dedi: *«İnnisən, cinnisən, hər nəsən, öz xoşunla çıx get, yoxsa sənin başına elə bir oyun açaram ki, ömürlük biabır olarsan»*.

Mən ürəyimdə qocanın bu sözlərinə güldüm. Qoca bir parça mum çıxardıb ondan insan fiquru düzəltməyə başladı. Fiqur adam şəkli alandan sonra qoca belindən xəncər çəkib fiqurun hər iki qulağını dibdən kəsdi. Həmin dəqiqə mən qulağımda kəskin ağrı hiss etdim. Tez küçəyə atıldım. Mənim kəsilmiş qulağımdan qan axırdı, həmin gündən daha mən gözəgörünməzliyimi itirdim.

Bu əsatirdən görünür ki, insana bənzədilən fiqurun qulaqlarının kəsilməsi fiqura oxşadılan adamın da qulaqlarının kəsilməsinə səbəb olmuşdur. Yəni bu halda imitativ (oxşatma) prinsipindən istifadə edilmişdir. İmitativ prinsipə əsaslanan belə bir profilaktik ovsunu nəzərdən keçirək: uşağı sağ qalmayan qadın doğan kimi xəmirdən gəlinçik düzəldirlər, kəfənə büküb qəbiristanlıqda basdırırlar. Beləliklə, uşağın ölümü gəlinciyin dəfn olunması ilə imitasiya olunur və ruhlar aldadılır.

Kontakioz prinsipində hər hansı bir əşyaya edilən təsirin uzaq məsafədən bədənə də təsir göstərə biləcəyi əsas götürülür. Məsələn, ziyili müalicə etmək üçün ziyillərin sayı qədər arpa götürülür. Sonra həmin arpalar ziyillərə sürtülüb heyvan böyrəyinin üstünə taxılır və böyrəklə birlikdə qaramada basdırılır. Arpalar çürüyənə qədər ziyil–

lər də quruyub tökülür. İnama görə, arpa ziyilə toxundurulduğu üçün ona edilən təsir mahiyyət etibarilə ziyildə də əks olunur.

Türkəçarədə klassik ovsun ayinlərinin tərkib hissələri aşağıdakılardır:

TOTEMLƏR

Totem — konkret bir tayfanın ulu əcdad qəbul etdiyi canlı və ya cansız obyektlərdir. Qədim çağlarda adamlar hər hansı bir əməli fəaliyyətə başlamamışdan qabaq öz totemlərini — ulu əcdadlarını köməyə çağırardılar. Həmin çağırış ovsun ayinləri şəklində icra olunmuş və insanlar ayindən sonrakı əməli fəaliyyətdə totemin təsiredici qüvvəsinə inanmışlar. Qurd, dəvə, keçi, qoyun, öküz, at, dağdağan, üzərlik, iydə və s. kimi müqəddəs heyvan və bitkilər türkəçarə ayinlərində başlıca fiqurlara çevrilmişdir.

Qurd

Qədim türk yazılı abidələrində («Oğuznamə», «Kitabi-Dədə Qorqud» və s.) qurda tapınmanın klassik nümunələrinə rast gəlirik. Bu gün qurdla bağlı bir çox ovsun ayinləri həyata keçirilir. Məsələn, əgər qadının döşü süddən kəsilirsə, qurudulmuş qurd pəncəsi ilə həmin döş sıgallanır**.**

Anadolu türklərində, özbəklərdə, qırğızlarda, Qazan tatarlarında qurdla bağlı bir çox müalicəvi ovsun ayinləri var.

Geniş yayılmış fərziyyəyə görə, it — qurddan dönmədir və qurda bəslənən mifoloji inam itə də xüsusi ehtiram bəslənməsini şərtləndirmişdir. İt bəzi xalqlarda hətta ilahiləşdirilmişdir. O, Uzaq Şərq və Şimal-Şərqi Asiyada qurbanlıq heyvan rolu oynayır. Belə hesab edilir ki, bu qurban xəstəliklərdən və ölümdən qurtarmağa yardımçı olur.

Azərbaycanda itlə bağlı bir çox ovsun ayinləri indiyədək öz izlərini qoruyub saxlamışdır. Məsələn, uşağı qalmayan ailədə yeni

doğulmuş uşağın qulağını deşib it tükü keçirirlər və ya uşağın ağzını it südü ilə açırlar (yəni uşağa ilk dəfə ana südü yox, it südü verirlər).

Buğa

Arxeoloji araşdırmalar göstərir ki, qədim Azərbaycanda buğa (öküz) təsvirləri, heykəlcikləri geniş yayılmışdır. Bu fakt sübut edir ki, azərbaycanlıların dünyagörüşündə buğa (öküz) inamı mühüm yer tutmuşdur. Buğaya (öküzə) mifoloji inam bəzən inəyə də xüsusi ehtiram göstərilməsini şərtləndirmişdir. Təsadüfi deyil ki, Azər–baycan ovsun təbabətində həm buğadan (öküzdən), həm də inəkdən istifadə olunur. Məsələn, mal ödü, qardaşsız qızın çıxardığı qoyun gözü və daş xınası el arasında qaşınmanı aradan götürən bir dərman hesab edilir.

Qoyun

Əgər hər hansı qadının doğduğu uşaq qalmırsa, onda qəbiristanlıqda yeddi qəbir sayıb, sonra torpaq götürürlər və həmin qadının doğduğu uşaqyoldaşını**(cift)** torpaqla birlikdə bir qaba qoyub üstünə su tökürlər. Suyun içinə bir neçə iynə atırlar. Qadını oturdub ayağının altına qoyun kəlləsi qoyurlar, başına qara pərdə örtürlər. Uşaqyoldaşı və qəbiristanlıq torpağı ilə qarışdırılmış suyu şırrandan qadının başına axıdırlar. Su qurtardıqdan sonra suyun dibində qalan iynələri uşaqyoldaşının üstünə töküb yerə basdırırlar.

İlan

Əl tərləyəndə əlin içi ilanın belinə çəkilirdi. Belə inam var ki, ilanın ağzından qurbağanı alıb buraxan adam xəstə boğazı sığallasa, sağalar.

ONQONLAR

Ongon — mifrik hamidir. Türk xalqlarında müxtəlif heyvanlarla yanaşı, quşlar da soyköklə bağlı əsas zoomorfik ongon kimi tanınmışdır. Azərbaycanda zoomorfik quş ongonları öz ilkin funksiyasını itirsə də, ayrı-ayrı quşlara (qaz, göyərçin, leylək, qartal, quzğun, qarquş, sarğa, durna, xoruz və s.) inamın izləri indiyədək qorunmuşdur. Ona görə azərbaycanlıların ovsun təbabətində həmin quşlar geniş yer tutur. Məsələn:

- Bir adamın qorxuluğunu götürmək üçün onun kürək nahiyəsin–dən paltarı cırılır, kürəyinə xoruz pipiyinin qanı vurulur.
- Uşağı şeşə vurmasın deyə, onun yanına xoruz bağlanır.
- Gec dil açan uşağa göyərçin yumurtası içirdirlər və s.

Vaxt

Ovsun ayinlərində vaxta ciddi surətdə əməl edilir. Xüsusən, gün batan çağı (şər vaxtı) və gün çıxan vaxt (sübh vaxtı) daha çox qiymətləndirilir. İnama görə, şər ruhlar hava qaralarkən fəaliyyətə başlayır, işıqlanarkən isə fəaliyyətdən qalır və gizlənirlər. Ona görə də ovsun ayinlərində sübh çağı şər ruhlarla mübarizə üçün ən münasib vaxt sayılır.

Sakremental saylar

Bütün dünya xalqlarında müəyyən kultlarla əlaqədar müqəddəsləşdirilmiş saylar var. Türk xalqlarında, o cümlədən də azərbaycanlılarda sakremental saylara 3, 7, 9 və 40 rəqəmləri aiddir. Türkəçarə ayinlərində 3 rəqəmi uğurluluq, 7 rəqəmi müqəddəslik, 9 rəqəmi sonsuzluq, 40 rəqəmi çoxluq rəmzi kimi işlənir.

Rəng

Ovsun ayinlərində qara rəng xəstəliyin, ümumiyyətlə şərin simvoludur. Qırmızı rəng isə əks atributları — xoşbəxtliyi, hərarəti və s. bildirir.

Musiqi

Hələ qədim zamanlardan başlayaraq insanlar ovsun ayinlərində ahəngdar səslərdən istifadə etmiş, təbillər çalmış, müxtəlif simli alətlər səsləndirmişlər. Belə səslər çox vaxt müqəddəs heyvanları, quşları təqlid etmək, bəzənsə onları hürküdüb qaçırmaq funksiyası daşımışdır.

Söz

Sözün müəyyən məsafədən təsir etməsi onu ən qüdrətli ovsun elementlərindən birinə çevirmişdir. Sözün təsiri ovsun ayinlərində iki variantda əldə edilir. Birinci halda sözlər sadə, başa düşülən şəkildə oxunur. Bu sözlərdə ovsunun məqsədi, xəstəliyin səbəbi, yeri, ondan xilas olmaq arzusu və s. ifadə olunur. Məsələn:

Küflə xatun, bu gün zökəm olmuşam,
Düşmənə kəm olmuşam,
Bu gün mənim, sabah sənin...

Bu sözlər deyiləndən sonra xəstə burnunun suyunu silib küfləyə atır. Deyimdən görünür ki, xəstə zökəm olmuşdur. Ovsunçuya görə, Küflə xatun (iyələrdəndir) xəstəliyi qəbul etməklə xəstənin sağalma–sına kömək edəcəkdir.

Burun suyunun silinib atılması ilə xəstəliyin atılması imitasiya edilir.

İkinci qrup ovsun ayinlərində sözlər anlaşılmaz şəkildə oxunur:

Humay üstə humaya,
Davud hökmü humaya
Saçın qu so...
Başın qu so...
Yataq yanı,
Balışın gu so...
Asdım davanı
Qovdum havanı

Qu so, qu so...
Qu so, qu so...

Bu cür ayinlərdə anlaşılmaz ərəb və fars sözlərindən də istifadə edilir.

Hərəkət

Ovsun ayinlərinin əsas atributlarından biri də hərəkətdir. Hərəkət dedikdə əlin, başın, ayağın və s. sadəcə tərpədilməsindən tutmuş mürəkkəb ritm və rəqslərdəki hər şey nəzərdə tutulur. Ovsunda hərəkətlər müəyyən prosesləri imitasiya etmək məqsədi daşıyır. Məsələn, xəstəliyi kənar etmək, xəstəlikdən qorunmaq üçün müəyyən hərəkətlər edilir. Bura tüpürmək, püfləmək, əlin, ayağın və ya bədənin uzaqlaşdırmanı bildirən hərəkətləri və s. aiddir. Peşəkar ovsun ayinində hərəkətlər ovsunçunun ruhlar aləminə səyahətini, ruhlarla mübarizəsini imitasiya edir.

DİGƏR OVSUN ELEMENTLƏRİ

Ovsun ayinlərində klassik elementlərdən başqa, insan tüpürcəyi və müxtəlif yağlar da xüsusi vasitə kimi çıxış edir.

Azərbaycanlıların ovsun müalicəsində mis, dəmir və s. kimi metalların işlədilməsinə də təsadüf edilir. Metalın ovsun gücünə inam çox güman ki, onun yer altından çıxması və odla emal edilməsi ilə bağlıdır.

Ovsun ayinlərində mühüm yer tutan su əski inama görə həm qoruyucu tanrı, həm də təmizləyici qüvvə kimi qəbul edilmişdir.

Ovsun ayinlərinin spesifik xüsusiyyətlərindən biri də odur ki, qədim ovsun ayinləri maskalarda həyata keçirilirmişdir. Müasir dövrə qədər yaşamış ovsun ayinlərində ovsunun bu qədim xüsusiyyəti qismən görünmüşdür.

TÜRKƏCARƏNİN OVSUN NÖVLƏRİ

Elmi təbabətin sahələrinə uyğun olaraq ovsun təbabətini iki sahəyə ayırmaq olar: profilaktik ovsun və müalicə ovsunu.

Bu sahələrin hər ikisi xeyirxahlığa xidmət edir. Ona görə də hər iki ovsun ağ ovsun adlanır.

Bundan başqa, zərərverici ovsun da vardır. Bu ovsun insanlara xəstəlik, sonsuzluq, ölüm gətirmək üçündür. O, qara ovsun adlanır. Zərərverici ovsun vaxtilə insanlar arasında qarşılıqlı mübarizə vasitələrindən biri olmuşdur.

PROFİLAKTİK OVSUN

Bu ovsun ayinləri iki təxmini qrupa ayrılır. Birincisi, bədxah ruhların və bədnəzərin bədənə keçməməsi üçün keçirilən qovucu ovsun; ikincisi, artıq bədənə daxil olan, lakin xəstəlik törətməyə imkan tapmayan ruhları kənar etməyə yönəldilmiş təmizləyici ovsundur.

A. Qoruyucu Ovcun

Qoruyuçu ovsundan bəd ruhların və bədnəzərin təsir edə biləcəyi obyektlərin, bağın, bostanın, adamların (daha çox kiçikyaşlı uşaqların) mühafizəsi üçün istifadə olunur. Bu ovsun həmayillər — talismanlar və ya amuletlər adlanan əşyaların paltara tikilməsi, yaxud qola, boğaza bağlanması ilə həyata keçirilir. Həmayillərə aşağıdakılar aiddir:

Gözmuncuğu

Gözmuncuğundan bədnəzərə qarşı istifadə edilir. Gözmun–cuğunun başlıca və ənənəvi forması kürəşəkilli, qara rəngli, üzərində ağ nöqtəvari ləkələri olan şüşələrdir. Gözmuncuğundakı qara və ağ rənglər bədxah və xeyirxah ruhların qarşılıqlı mübarizəsinin simvolu kimi yozula bilər. Kürənin ovsunlayıcı gücünə inam kürəşəkilli

muncuqların xalq təbabətində geniş istifadə olunmasına əsas vermiş–dir.

Dağdağan

Dağlarda bitən və müqəddəs sayılan bu ağacın kürə şəkilli, təxminən noxud boyda meyvələri deşilir, sapa keçirilir və paltara tikilir.

Badam

Badamın çəyirdəyi deşilib sapa keçirilir və paltardan asılır. Badam da müqəddəs ağacdırmı? Elmi ədəbiyyatda badamın müqəddəs ağac sayılması faktına rast gəlmədik. Ola bilsin ki, badam çəyirdəyinin həmayil kimi istifadə olunmasının bir səbəbi həmin dənənin üzərində labirinti xatırladan müxtəlif naxışların olmasıdır.

İydə

Bəzən iydə dənəsi sapa düzülür və ondan bədnəzərin qabağını almaq üçün istifadə edilir. Dağdağan kimi, iydə də müqəddəs ağaclardandır. Bu fakta digər türk xalqları arasında da rast gəlmək olur.

Üzərlik

Müqəddəs bitkilərdəndir. Üzərliyin meyvəsi sapa düzülüb paltara tikilir. Üzərliyin ovsun qüvvəsinə inam çox geniş yayılmışdır və indinin özündə də o, Azərbaycanda bədnəzərdən qorunmaq üçün ən yaxşı vasitələrdən biri sayılır.

Duz-çörək

Müalicə ovsununda duz və çörəkdən də istifadə olunur. Məsələn, bir tikə çörək bir çimdik duzla bükülüb paltara tikilir və s.

Fikrimizcə, müasir dövrdə qonağın duz-çörəklə qarşılanması qədim ayinlərin yeni şəkildə təzahürüdür.

İt tükü

Göz dəyməsin deyə, it tükünü və ya itqarısını (nəcisini) parçaya büküb paltara tikirlər. Yeni doğulmuş uşaq ölməsin deyə, uşağın qulağı deşilir, bu deşiyə it tükü keçirilir.

Pişik tükü

Bu heyvan daha çox islamla əlaqələndirilir. Xalq arasında «pişiyinin belinə peyğəmbər əli dəyib» ifadəsi vardır. Lakin həqiqətdə isə pişik islamaqədərki inamlarla bağlıdır. İnama görə, pişiyi vuran, öldürən adam mütləq xəstələnər, yaxud pişik adamın qarşısına çıxanda iş düz gətirməz. Pişiyin tükü çənkə şəklində paltara tikilir ki, xəta-bəla uzaq olsun.

Bu tipli digər ovsun ayinlərinin də əsasında belə bir inam durur ki, insan şər aləmlə əlaqəli obyektləri öz üstündə gəzdirərsə, şər ruhlar həmin adamı özününkü hesab edib ona toxunmaz.

Dovşan quyruğu

Pişik kimi, dovşan da şər ruhlarla əlaqələndirilir. Dovşanın quyruğunun uc hissəsi kəsilir və bədnəzərdən qorunmaq üçün paltara tikilir.

Dəvə tükü

Bədnəzərdən qorunmaq üçün bir çənkə dəvə tükü uşağın paltarına tikilir.

Xərçəng çənəsi

Bədnəzərdən qorunmaq üçün qurudulub paltara tikilir. Xərçəngin ovsun qüvvəsinə inamın mənşəyi qaranlıqdır. Topladığımız bir əfsanədə xərçəng su ilə bağlı ruhlarla əlaqələndirilir.

Kömür

Şər ruhların ən çox qorxduğu şey kömür sayılır. Ona görə də kömür paltara tikilir, yaxud zahının və ya yeni doğulmuş uşağın başı

altına qoyulur. Fikrimizcə, kömürün ovsun qüvvəsinə inamda onun odla əlaqəsi və rənginin mifoloji mahiyyəti əsas rol oynayır.

Qurd (canavar) tükü və qurd dişi

Şər ruhlardan qoruyan mühüm ovsun elementi kimi paltara tikilir.

Dua

Quran ayələri yazılmış kağız parçaları üçbucaq şəklində bükülüb boyunlardan asılır. Duanın üçbucaq şəklində tikilməsinə başqa türkdilli xalqlarda da rast gəlirik ki, bu da həndəsi fiqurların ovsun qüvvəsinə inamla səsləşir. Ola bilsin ki, ilk həndəsi fiqurları qədim insan ovsun ayinlərində çəkmişdir.

Profilaktik ovsunda pambıq, sarımsaq qabığı, toyuğun «çəkişmə» sümüyü, saman çöpü və s. kimi elementlər də iştirak edir.

B. Təmizləyici Ovsun

Təmizləyici ovsunun əsasən aşağıdakı növləri vardır:

Odla təmizləmə

Odun təmizləyici ovsun qüvvəsi onun hər şeyi məhv etmək xüsusiyyətindən doğmuşdur. İbtidai insan bu təcrübəni ruhları məhv etməyə qarşı yönəltmək istəmişdir. Odla bağlı ovsun ayinlərinin başqa bir əsası da onun işıq yaratmasıdır. İşıq qaranlığa qarşı, başqa sözlə, qaranlıqdan doğan ruhlara qarşı qoyulur. Odla təmizləmənin ən geniş yayılan ayini axır çərşənbə günü odun üstündən tullanaraq ovsun oxunmasıdır: «Ağırlığım-uğurluğum, tökül bu odun üstünə» və s. Odun məhvedici qüvvəsindən müalicə ovsununda da istifadə edilir.

Su ilə təmizləmə

Xalqımız suyu təmizləyici, paklandırıcı həyat mənbəyi kimi qəbul etmişdir. Yeni doğulmuş uşaq birinci, üçüncü, onuncu, qırxıncı

gün yuyulur. Bəzən uşağı qalmayan ailənin övladı çirkli saxlanılır və belə hesab edilir ki, şər ruhlar çirkli bədənə təsir etməz. Belə uşaq murdar sayılır. Bədbəxt hadisədən ölənin paltarları suya axıdılır ki, ailənin digər üzvlərinə həmin bədbəxtlik tapmasın və s.

Səfər uğurlu olsun deyə, yola çıxanın arxasınca bir qab su atırlar. Bu adət çox güman ki, su ilə bağlı qədim ayinlərin bir elementidir. Meyidin yuyulması da təmizləyici ovsun ayinidir.

Ritual hərəkətlərlə təmizləmə

Qeyd etdik ki, ovsun ayinlərində hərəkətlərin yamsılanması, yəni imitasiya edilməsi mühüm rol oynayır. Təmizləyici və qovucu ovsun ayinlərində müxtəlif prosesləri imitasiya edən hərəkətlərdən geniş istifadə edilir. Təzə bəy «bağlanmasın» (evlənənlərdə müvəqqəti cinsi tormozlanma prosesinin xalq anlami) deyə, kəbin oxunanda bir bıçaq açıq şəkildə saxlanılır. Kəbin oxunub qurtarandan sonra bıçağın dili qatlanır. Zifaf gecəsi bıçaq açılıb bəy döşəyinin altına qoyulur. Burada bıçağın açılıb-bağlanması, sonra yenidən açılması təzə bəyi zərərverici ovsundan qorumaq üçündür. Açma-bükmə hərəkəti bəyin tormozlanmadan çıxmasını imitasiya edir.

İki adam baş-başa dəyəndə yenidən üç dəfə başlarını bir-birinə vurur və hər ikisi üç dəfə kənara tüpürür ki, başlarına keçəl düşməsin. Burada kənara tüpürmək hərəkəti keçəlliyi uzaqlaşdırmağı imitasiya edir.

Bir adamın əlindən xəta çıxarsa, həmin xəta ağır nəticələnməsin deyə, bu adamın üzünə ələk tutulur və o, üç dəfə öz əlinə tüpürür.

Əgər iki zahı və ya iki hamilə rastlaşırsa, çilə basmasın deyə, onlar iynələrini bir-biri ilə dəyişdirirlər. Ata və ya hamamdan çıxan başqa bir adam yeni doğulmuş «qırxlı» uşağın üstünə gələrsə, çilə basmasın deyə, o, çilə basanın, yaxud hamamdan gələnin qabağına çıxarılır.

Əgər bir nəfəri ildırım vurub öldürərsə, ailənin digər üzvlərini ildırım vurmasın deyə, onları «çaxdırırlar», yəni çaxmaq çəkib qığılcımları hər bir ailə üzvünün üstünə tökürlər.

Bütün bunlardan başqa, profilaktik ovsun ayinlərinin aşağıdakı nümunələri də vardır:

- Uşağı gözəl olsun deyə, ana təzə ayı görəndə salavat çevirir.
- Zahının yanına üç yumurta və şişə sancılmış soğan qoyulur, zahı həyətə çıxanda həmin şişi əlinə götürüb özü ilə gəzdirir ki, özündən yeylər ona zərər yetirməsin. Bu, on gün davam edir.
- Uşaqyoldaşını təmiz yerə basdırırlar.
- Uşağın düşmüş göbək bağırsağı məktəbdə, məsciddə basdırılır və ya bağa, əkin sahəsinə atılır ki, uşaq böyüyəndə dinə, təhsilə maraq göstərsin, yaxşı bağban və ya əkinçi olsun.
- Zahıya özündən yeylər xələl toxundurmasın deyə, onun dörd tərəfinə sicim sərpilir.
- Yeni doğulmuş uşağa zərər dəyməsin deyə, uşaqyoldaşının üstünə iynə taxıb atırlar.
- Bədnəzər adamın paltarından bir tikə və ya evindən bir buğda, yeddi düyü, iynə qırığı (deşikli tərəfi), saman və s. götürüb xəstənin yaxasından asırlar ki, ona göz dəyməsin.
- Uşağı qalmayan qadının qayanın və ya alçaq bir təpənin başını üç dəfə dolandırıb deyirlər: *«Sən burdan getsən, bu uşaq da məndən getsin».*
- Uşaqyoldaşından bir tikə zahıya yedizdirib, qalanını evdə basdırırlar ki, yeni doğulmuş uşaq ölməsin.
- Uşaq doğulan yerə mıx çalınır ki, cin-şeytan zahıya yaxın düşə bilməsin.
- Sonsuzluğu aradan qaldırmaq üçün yeni doğulmuş uşağın göbəyi sonsuz bir qadının baş barmağının üstündə kəsilir.
- Cadunu təsirdən salmaq üçün baş tükünə tüpürüb atırlar.
- Uşağı şeşə vurmasın deyə, şeşə (yarasa) öldürülüb evdən asılır.

- Bədnəzər adamdan qorunmaq üçün onu murdarlaşdırırlar və ya onun bir tay ayaqqabısını gizlədirlər.

Müalicə ovsunu

Profilaktik ovsun ayinləri xəstəliyin qarşısını ala bilməyəndə ovsunun ümumi prinsipləri əsasında müalicəvi ovsun ayinləri keçirilir. Azərbaycanlılar arasında ovsun müalicəsi əsasən aşağıdakı hallara qarşı həyata keçirilir:

- qorxu, həyəcanlanma və s. ilə bağlı psixi xəstəliklər;
- infeksion xəstəliklər (sarılıq, qızılca, çiçək, göyöskürək və s.);
- dəri xəstəlikləri (ziyil, dəmirov, qızıl yel və s.);
- körpə uşaqların patoloji vəziyyətləri (gec ayaqaçma, gec dilaçma, boynunun gec bərkiməsi, gec dişçıxarma, hipot–rofiyalar, sancılar və s.);
- doğuş, onun pozulmaları, qadın sonsuzluğu və s. hallar;
- zob, quduzluq, qoturluq, ağızgəlmə və s. xəstəliklər.

Qorxu — yuxunun pozulması, qarabasma, özünəqapılma, kəskin arıqlama, ruh düşkünlüyü və s. əlamətlərlə bəlli olur.

Qarabasmanın əmələ gəlməsində qaranlıq vaxtı şər ruhların fəaliyyəti başlıca səbəb hesab edilir. Bu zaman xəstəyə

- Qara qazandan su içirdirlər
- Bəzən kömürü suya salıb suyunu xəstəyə içirdirlər.

Bu ayinlərdə rəngin mifoloji funksiyası və suya inam mühüm rol oynayır.

Bu sadə ayinlər xəstəyə kömək etməyəndə mürəkkəb ovsun ayinləri tətbiq olunur.

- Xəstəni arxası üstə uzadıb üstünə qara pərdə örtürlər. Sonra taylı tərəzinin bir gözünə su qoyub, o biri gözünü boş saxlayırlar. Tərəzinin su olan gözünü xəstənin üstündə o tərəf-bu tərəfə yellədirlər. Tərəzinin su olan gözünü arabir xəstənin ayağının, qarnının və başının üzərinə qoyub deyirlər: *«Nədən qorxmusansa, qorxuluğunu götürdüm».*

Qorxuluq odla da götürülür.

- Xəstə yuxuda olanda ovsunçu əlinə bir stəkan su götürür. Xəstənin başı üstündə müəyyən məsafədən üç dəfə kibrit yandırıb həmin suya atır və deyir: «İnnidən, cinnidən, insandan, heyvandan, ağacdan, hər nədən qorxmusansa, qorxuluğunu götürdüm».

Bu ayində iki mühüm ünsür — od və su, həmçinin yanıb-sönmə hərəkəti əsas hesab edilir.

- Yaxud xəstə arxası üstə uzadılıb onun üstünə qara pərdə çəkilir. Xəstənin başından ayağınadək pərdənin üstünə yeddi tikə pambıq qoyulur. Pambıq tikələrinə od vurulur və pərdə tələm-tələsik yığışdırılır.

Bu ayində xəstənin üstündə «od qalamaq» hərəkəti ilə xəstəliyi törədən ruhları məhv etmək imitasiya olunur.

Rəngin dəyişilməsi ilə müşayiət edilən infeksion xəstəliklər zamanı ovsun təbabəti daha çox tətbiq edilir. Məsələn,

- Sarılığı birinci görüb bildirən adam öz barmağını kəsib qanını xəstəyə yaladır. Sonra xəstənin boğazından sarı kəhrəba asırlar, yaxud onu kəhrəba salınmış suda çimizdirirlər.
- Sarılıq tutan adamı sidik və nəcislə «murdarlayırlar».
- Qızılcalı adam qırmızı geyindirilir, xətər dəyməsin deyə, onun gözünə qırmızı pul, boğazına qırmızı muncuq bağlayırlar.
- Göyöskürək tutmuş adama göy qarğanın qanı içirdilir, yaxud boğazına göy qədəh (parça növü) bağlanır.
- Çiçək xəstəliyi tutmuş adam gülə bənzər naxışları olan çiçək daşının suyu ilə çimizdirilir.

Bütün bu ovsun ayinlərinin əsasında əlaməti əlamətlə müalicə etmək durur. Yəni sarılıq gətirən xəstəlik — sarı rənglə, göyərmə verən xəstəlik — göy rənglə aradan götürülür.

Bu cür «əlamət» ayinləri ziyilin müalicəsində də keçirilir.

- Ziyilin sayı qədər arpa və ya buğda götürülüb ziyilə sürtülür, heyvan böyrəyinə taxılır. Sonra həmin böyrək axar su kənarında palçığa basdırılır. Arpa və buğda şəkilcə ziyilə oxşadılır, onların palçığa basdırılması ilə ziyilin yoxa çıxmasına imitasiya olunur.
- Bəzən ağızdan çıxarılan bir tikə yemək ziyilə sürtülüb atılır, bəzən də evdən bir tikə ət oğurlanıb ziyilə sürtülüb qaramada basdırılır. Ağızdan düşən tikənin atılması ziyili uzaqlaşdırmağı imitasiya edir.
- Uşaq yaşlarının patoloji vəziyyətləri ilə bağlı olan «əlamət» ayinləri də çoxdur. Uşağın boynu gec bərkiyirsə, heyvanın boyun əti suya çəkilir və suyu uşağa, əti isə ona süd verən anaya yedizdirilir.
- Bəzən boyun ətindən bir tikə götürüb uşağın paltarına tikirlər.
- Uşaq gec yeriyəndə naxırçıya bir çörək verirlər. Naxırçı çörəyi özü ilə çölə aparıb gəzdırır, axşamçağı qaytarıb sahibinə verir. Həmin çörəyi uşağa yedizdirirlər.
- Bəzənsə gec yeriyən uşağın ayaqları iplə bir-birinə bağlanır, sonra həyətdə naxır qabağına çıxarılır. Naxırçı uşağın ayaqlarındakı ipi kəsir, əvəzində haqq olaraq bir çörək alır.

Bu ayinlərdə çörəyin ovsun qüvvəsinə inamla yanaşı, naxırçının gəzərçilik simvolu olması da müəyyən rol oynayır. İplərin kəsilməsi ilə uşağın yeriməsinə mane olan qüvvələrin kəsilməsinə imitasiya edilir.

- Uşaq sancılananda onu başı üzərinə qaldırıb qarını üstə üç dəfə fırladırlar.
- Bəzi uşaqlarda qidalanma pozulması hesabına arıqlama, narahatlıq əmələ gəlir. Belə uşaqlara «cindəyişiyi» deyirlər və hesab edirlər ki, uşaq doğulanda cin öz balasını yeni doğulmuş həmin uşaqla dəyişmişdir. Bu cür uşağı qəbiristanlığa aparıb qəbirlərin arasına qoyur və bir az uzaqlaşıb deyirlər: «Cin, bu

sənin balandırsa götür, ver mənim balamı». Sonra uşağı evə aparırlar.

Müalicə ovsununun aşağıdakı ayinləri də məlumdur:

- Göyərmə xəstəliyi olan adamın dörd bir yanı cızılır.
- Dalaq şişini sağaltmaq üçün daş duz üstdən dalağa sürtülüb su kənarında basdırılır.
- Ziyil çirkli süpürgə ilə süpürülür.
- Çilləni kəsmək üçün çağa astanaya qoyulur, ev süpürüldükdən sonra zibil uşağın üstündən çölə atılır.
- Bədən şişəndə «xəstə umsunub» deyirlər və yeddi evdən yemək yığıb xəstəyə yedizdirirlər.
- Döş gələndə canavar ayağı, qartal çaynağı, ilan buynuzu ilə döşü cızırlar və ya qəflətən döşü qapırlar.
- Zifaf gecəsi təzə bəy «gəlinə yaxınlaşa» bilməyəndə onu qəbiristanlıqda gəzdirirlər.
- Cindəyişiyini (həddən artıq zəif uşağı) qəbiristanlığa aparıb yeddi qəbir arasına qoyurlar, əgər uşaq ağlamırsa, demək, cindəyişiyi deyil.
- Üzülmüş xəstə yerə uzadılır. Qara çölmək yarısınadək su ilə doldurulub beş-altı dəfə xəstənin qarnının üstünə qoyulub götürülür. Dua oxunur və həmin sudan xəstəyə içizdirirlər.
- Ağızgəlmə xəstəliyində səhər obaşdan su kənarına gəlib oxuyurlar:

Salaməleyküm, sucuğaz,
Əleyküməssalam, bucuğaz.
Üç kilsəyə od düşüb,
Dərmanıdır bucığaz.

Sonra həmin sudan üç dəfə götürüb xəstənin ağzına atırlar.

- Uşağın ağız suyu mütəmadi axanda dayısının corab bağı ilə uşağın ağzını silirlər.

- Hər hansı xəstəliyə mübtəla olan adam təzə ay görünəndə göy otun üstünə çıxıb oxuyur:

  Ay, səni xoş gördük,
  Bu dərdimin yerini boş gördük.

- Qada qurbanını xəstənin başına üç dəfə dolandırıb kəsirlər. Qanın axması — xəstəliyin axıb getməsi deməkdir.
- Qızılcalı uşağın yanına bir qab su qoyub suyun içinə üç yumurta salırlar. Sonra 40 saman çöpünü dəstəsi ilə sudan götürüb xəstənin üstünə su səpirlər.
- Qadının döşü gələndə axır çərşənbə tonqalının külündən götürüb döşə sürtürlər.
- Diri qurbağa ziyilə sürtülüb buraxılır.
- Gec yeriyən uşaq dəyirman novundan keçirilir.
- Doğuş yubananda hamilənin yanındakı qadınlar əllə onun belindən vurub deyirlər: «El köçdü, sən də köç».
- Gecə doğan qadının uşaqyoldaşı evdə basdırılır.
- Döş gəlmədə yad bir adam qızdırılmış ərsinlə xəstənin döşünə vurub onu diksindirir.
- Ağızgəlmədə ağız dul qadının paltarının ucu ilə üç dəfə silinir.
- Doğulan uşaq ölməsin deyə, onu doğulan kimi özgə adamın yaxasından keçirirlər.
- Uşağı qalmayan ailənin uşağını dilənçi elan edirlər, uşaq bir yaşa çatanadək ona yad adamların paltarlarını geyindirirlər.
- Qorxmuş uşağı dul arvadın paltarından və ya tüfəng qayışından keçirirlər.
- Uşaq «şişəndə» (nəyəsə tamahı düşəndə) gözü ağrıyır, ona görə ocaqdan kül götürüb onun gözünə püləyirlər.
- Uşaq gec yeriyəndə itburnu çubuğu iki yerə bölünür və xəstə bu çubuq parçalarının arasından keçirilir. Gec yeriyən uşağı öz atasının ayaqları arasından da keçirirlər.

- Uşaq qorxanda odun kömürünü suya salıb həmin suyu uşağa içirirlər.
- Bir ailənin oğlan uşağı qalmayanda yenicə doğulmuş oğlan uşağına qız paltarı geyindirirlər.
- Uşaq sancılananda anası onun belini açıb, qarnını yalaya-yalaya oxuyur:

«İnək də balasını yalayır, mən də balamı yalayıram».

Bundan sonra uşağın qarnı başa qoyulub bir neçə dəfə fırladılır. Bu hərəkət üç dəfə təkrarlanır.

- Uşaq gec yeriyəndə qurdun ağzı kəsilib halqa simə taxılır və uşaq həmin halqanın ortasından keçirilir.
- Uşağı qalmayan qadın küçükləmiş itin üstünə gedir.
- Qurbanlıq heyvanın qanından uşağın damağına vurulur ki, qada-bəladan uzaq olsun.
- Uzun müddət xəstə yatan adamı qəbiristanlığa aparırlar, bir qab su töküb xəstənin əllərini bir qəbirin üstündə yuyurlar. Sonra qabı qəbirin başdaşına çırpıb sındırırlar.
- Qızdırmalı xəstə güllə yarasından ölən adamın qəbri üstündə çimizdirilir.

ZƏRƏRVERİCİ OVSUN

Zərərverici ovsun ayinləri haqqında bəzi məlumatlar xalqın yaddaşında indiyədək qorunmuşdur. Məsələn, deyirlər ki, bir adamın tükünü yandırsan, o adamın başı ağrıyar, dırnağını yandırsan, onda oynaq-sümük ağrıları əmələ gələr.

- Uşağın beşiyini boş-boşuna yırğalamaq onun sancılanmasına, hətta ölümünə səbəb olar.
- Ölü sümüyünü bir adama yedirtsən, o adam ölər.
- Bir adama qatırın dırnağını yedirtsən, o adamda sonsuzluq əmələ gələr.

- Canavar yağını iki adamın paltarına sürtsən, onların arası dəyər.
- Ana qarğanın beynini yeyən adam dəli olar.
- Quşun dilini kəsən adamın uşağı lal olar.
- Gecə dırnaq tutmaq ömrü gödəldər.
- Başqasının yemək payını yeyənin dilinə pay çıxar.

Zərərverici ovsun ayinlərinə qarşı çoxlu profilaktik ovsun ayinləri və qadağalar vardır.

Ovsunu həm psevdoelm, həm də psevdoincəsənət hesab edirlər. Həm əsl elm, həm də əsl incəsənət məhz ovsundan aralanaraq inkişaf etmişdir. Təbabət inkişaf etdikcə ovsun təbabəti ya aradan çıxmış, ya da öz ilkin funksiyasını dəyişmişdir. Tarixi inkişaf baxımından ovsun bu günümüzə aşağıdakı formalarda gəlib çıxmışdır:

Cüzi dəyişikliklərə məruz qalmış, bu günədək öz ilkin şəklini də, funksiyasını da saxlamış ayinlər. Bu qrupa aid olan ayinlər əsasən psixi pozğunluqlar, hamilələlik, doğuş və uşağın ilk illərinin patologiyaları ilə bağlıdır.

Ovsun mahiyyətini itirib adətlər şəklində mövcud olan ayinlər.;

- Yeni doğulan uşağı yumaq adəti
- Səfərə çıxanların arxasınca su attmaq adəti
- Qonağı duz-çörəklə qarşılamaq adəti

Tədricən xalq təbabətinin empirik müalicə vasitələrini özündə birləşdirən ovsunlar.

İtdirsəyinin xalq təbabətində müalicəsi buna klassik misaldır. İtdirsəyinin əmələ gəlməsini xalq itlə bağlayır. Çox vaxt belə hesab edilir ki, itə atılacaq payı təsadüfən yeyən adamda itdirsəyi çıxır və ya itə tərəf tüpürmək itdirsəyinin əmələ gəlməsinə səbəb olur. Ona görə də itdirsəyini müalicə etmək üçün

- Bir tikə çörək gözə sürtülüb itə atılır
- İt tükü xəstə gözə çəkilir.

Bu vasitələrin hər ikisi sırf ovsun ayinidir.

- Bəzən itdirsəyi daha da irinləyib gözə yayılır. Belə olanda deyirlər ki, gözə xəstənin əli dəyib. Ona görə də xəstənin sağ əlini suya tutub həmin suda xəmir edib gözə təpitmə qoyurlar.

Burada əlin suya tutulması ovsun ayini, xəmirlə təpitmə isə empirik müalicə vasitəsidir.

İslamla əlaqələndirilən ayinlər. Məsələn, belə bir ayin var ki,

- Tutmalı adamın üzündə Quranı vərəqləyib yelini ona vermək lazımdır.

Ovsunun Təsir mexanizmi

Müalicə ovsununun effekti iki cür olur:

a) material effekt, **b)** psixoeffekt.

Ovsun müalicəsinin material effektinə öyümə-qusma, tərləmə, qanalma və s. aiddir.

Tərləmə bəzən ovsun ayinlərində xəstənin keçirdiyi həyəcandan doğur və bu tərləmə xəstənin soyuqdəymə dövrünə təsadüf edəndə sağalma effekti verir. Bəzən qəbul edilməsi çətin olan acı, iyrənc, pisqoxulu maddələrin təsiri ilə xəstədə reflektor qusma baş verir. Əgər xəstə zəhərlənmişsə, onda bu qusma müsbət effekt verir.

Ovsunçu belə hesab edir ki, bədənin müəyyən yerlərində ruhlar var. Ruh qanda yerləşmişsə, onu qan almaqla uzaqlaşdırmaq olar. Bu inam müasir qanalmanın əsasında durmuşdur. Qanalma yüksək qan təzyiqi və soyuqdəyməsi olan xəstələrdə müsbət effekt verir.

Müasir elmi təbabətin tətbiq etdiyi imalə üsulu da qədim ovsunun kəşfidir.

Ovsun ayinlərinin əsas effekti psixoeffektdir. Ovsun ayinlərinin psixiatrlar tərəfindən qəbul edilmiş təsiri iki yolla özünü göstərir:

a) fokus — illüziya, **b)** hipnoz — özünütəlqin.

Totem, onqon, tabu, say, rəng, musiqi, söz, hərəkət, müxtəlif əşyalar, tüpürcək, su, maska və s. kimi ovsun vasitələrinin xəstəyə təsir edib onda müəyyən illüziya yaratması xəstənin xarakteri,

cəmiyyətdə və ailədə mövqeyi, tərbiyəsi, savadı və s. ilə sıx bağlıdır. Ovsun ayinlərində psixoeffektin alınmasının əsas həlqəsi inamdır. İnam möcüzələr yaradır. O, güclü psixoloji amil kimi fiziologiyaya təsir edir. Psixoeffektin alınmasında xəstənin həssaslığı, onun emosiyaları, qıcıqları, hadisələrə fərdi reaksiyası da mühüm rol oynayır.

Qeyd etdik ki, ovsun ayinlərində vaxt amili diqqət mərkəzində saxlanılır. Elm artıq sübut etmişdir ki, günün müxtəlif vaxtlarında insan orqanizmi müxtəlif vəziyyətlərdə olur. Sübh tezdən simpatik sinir sistemi parasimpatik sinir sisteminə üstün gəlir. Bu da orqanizmin öz daxili imkanlarını səfərbər etməsi üçün çox vacibdir. Deməli, vaxt amilinə əsaslanmaqla ovsun təbabəti xronotəbabəti və xronobiologiyanı qabaqlayır.

Sözün böyük fizioloji təsiri var. Müasir psixoterapiyanın əsas silahı sözlə müalicədir. Qədim ovsun da sözün bu müalicəvi təsirindən istifadə edir. Cadugər, maq, şaman, loq, kahin, din xadimi, həkim sözlə təsir edib hipnoz yaradır. Sözün təsiri beyindən psixikaya, oradan bütün orqanizmə ötürülür ki, bu da somatik xəstəliklərdə ovsun ayinlərinin müalicəvi təsirinin mahiyyətini açır.

Səs (musiqi) orqanizmə ikili təsir edib gah sinir sistemində tormozlanma prosesi əmələ gətirir, gah da orqanizmi son həddə qədər qıcıqlandırır. Səsin-musiqinin müasir elmi təbabətdə də müəyyən rolu vardır. Cərrahi əməliyyatlar bəzən musiqi altında da aparılır, ondan ağrıkəsici kimi, psixi xəstəliklərin müalicə vasitəsi kimi istifadə edilir.

Ovsunun başqa bir elementi — hərəkət və ritmin də böyük müalicəvi təsiri var. Ovsunçunun hərəkətləri çox vaxt xəstədə qorxu və həyəcan yaradır. Rəqs ritminin bioloji toxumalara təsiri elmi təcrübə yolu ilə yoxlanılıb təsdiq edilmişdir.

Ovsunun quruluş elementlərindən sayılan rəng insanda müxtəlif emosional vəziyyətlər yaradır ki, bundan da müasir elmi təbabət geniş istifadə edir.

Ovsun ayinlərinin başlıca psixoeffekti olan hipnoz və ya özünütəlqindən müasir elmi təbabət isterik vəziyyətlərdə, yuxunun və cinsi funksiyaların pozulmasında, dəri xəstəliklərində və hamiləlik pozğunluqlarında mühüm müalicə vasitəsi kimi istifadə edir.

TÜRKƏÇARƏNİN DİGƏR SAHƏLƏRİ

Türkəçarənin ovsundan başqa hansı sahələri var? Bu suala cavab verməmişdən qabaq, türkəçarənin coğrafi mühitlə bağlılığı məsələsinə toxunmaq lazım gəlir. Çünki insanların yaşadığı coğrafi şərait sağlamlığı və xəstəliyi şərtləndirən mühüm amillərdən biri kimi çıxış edir. Hər hansı bir ərazi üçün səciyyəvi olan xəstəliklərə uyğun olaraq türkəçarənin müəyyən sahəsi həmin ərazidə daha qabarıq şəkildə özünü göstərir. Yeri gəlmişkən, xatırladaq ki, coğrafi mühitin insan sağlamlığına təsiri folklor nümunələrində də öz ifadəsini tapmışdır. Məsələn:

Su gələr, asta gedər,
Dolanar dosta gedər,
Vuran qalsin bu yeri,
Sağ gələn xəstə gedər.

Bu bayatıdan göründüyü kimi, türkəçarə müasir klimatopa–tologiyanı (xəstəliklərin coğrafi mühit amilləri ilə əlaqəsini öyrənən elmi) xeyli qabaqlamışdır.

Türkəçarənin ayrı-ayrı sahələrini öyrənmək məqsədilə MR-in ərazisini üç zonaya bölmək olar: yüksək dağlıq zona, dağətəyi zona və aran zonası.

Coğrafi şərait xalqın reseptura mədəniyyətinə də öz təsirini göstərir. Məsələn, hər hansı xalq meşə və çəmənliklər zonasında məskunlaşmışsa, bu xalqın təbabətində bitkimənşəli reseptlər daha geniş yer tutur.

Heyvandarlıqla xüsusi məşğul olan xalqın təbabətində isə heyvanmənşəli reseptlər üstünlük təşkil edir. Türkəçarədə həm bitki, həm heyvan, həm də mineralmənşəli resept nümunələri demək olar ki, eyni dərəcədə özünü göstərir.

Özünə yardım, qarşılıqlı yardım və xüsusi məşğuliyyət formasında tətbiq edilən türkəçarənin bir-birindən fərqli aşağıdakı sahələri də var:

Ara həkimliyi

Ara həkimliyi elmi təbabətin terapiya ixtisasına uyğundur. Ara həkimlərinin iki əsas qrupuna rast gəlirik: ümumi əksər xəstəliklərin müalicəsi ilə məşğul olan geniş məlumatlı ara həkimləri və yalnız ayrı-ayrı xəstəliklərin müalicə sirrini bilən ara həkimləri.

Ara həkimləri tibbi bilikləri ara həkimi olmuş valideynlərindən və ya kənar şəxslərdən alırlar. Tətbiq etdikləri müalicə vasitələrinin əksəriyyəti dəfələrlə şəxsi təcrübədən keçirilmişdir. Ara həkimləri müalicə vasitələrini nadir hallarda sirr kimi saxlayırlar.

Xəstələrə yardım iki qaydada həyata keçirilir. Birinci halda ara həkimləri diaqnoz qoyurlar və özlərinin hazırladıqları dərmanları xəstəyə verirlər. İkinci halda diaqnoz qoyulduqdan sonra xəstəyə dərmanın hazırlanması və qəbul qaydası öyrədilir. Adətən, birinci halda dərmanın tərkibi xəstədən gizli saxlanılır. Bəzi ara həkimləri hazırlayacaqları reseptlərin tərkib hissələrini, xüsusən çətin tapılanlarını xəstədən tələb edirlər.

Ara həkimlərinin dərmanların toplanması, saxlanması, hazır–lanması və istifadə olunması yolları haqqında dəqiq məlumatı olur. Onlar həmçinin bir çox peşəkar adətləri, məsələn, boğaz basmaq, tikə ötürmək, göbək götürmək, qursaq çevirmək və s. yerinə yetirirlər.

Ara həkimləri xalqın çoxəsrlik yaddaşından istifadə etməklə yanaşı, bəzən müxtəlif tibbi ədəbiyyatdan bəhrələnib türkəçarəni müasirləşdirirlər.

Ara həkimlərinin əməyi bir çox hallarda xəstə tərəfindən müka–fatlandırılır.

Mamaçalıq

Türkəçarənin müstəqil sahəsi kimi respublikanın bütün bölgə–lərində özünü göstərir. Mamaçılıq elmi təbabətin mama-ginekologiya

sahəsinə uyğundur. Mamaçaların əsas işi doğuşu təşkil etmək, zahını və çağanı qorumaq, qadın sonsuzluğunu və bəzi qadın xəstəliklərini aradan qaldırmaqdan ibarətdir.

Doğuşun təşkilində ən mühüm mərhələ uşağın ana bətnində yerləşməsini təyin etmək, doğuşun necə keçəcəyini müəyyənləşdirməkdir. Bunun üçün mamaça hamilə qadının qarnını üstündən əlləyərək dölün iri hissələrinin vəziyyəti ilə onun necə doğulacağını diaqnozlaşdırır. Uşağın doğulmasının bir neçə forması müəyyən edilir. Elmi təbabətdə «köndələn gəliş» adlanan vəziyyət türkəçarədə «tərs gəliş» adlanır. İstər elmi təbabətdə, istərsə də türkəçarədə bu, qorxulu vəziyyət hesab olunur. Tərs gəlişi aradan qaldırmaq üçün üç üsuldan istifadə olunur:

a) hamilə qadının qarını heyvan yağı ilə yağlanır, mamaça dölün iri hissələrini üstündən sığallaya-sığallaya doğuşu normallaşdırır;

b) hamilə qadının qarnına dölün həcminə uyğun badya qoyulur və badya yavaş-yavaş lazım olan istiqamətdə fırladılır;

c) hamilə qadın palaz və ya cecimin arasına qoyulub fırladılır, bununla bədəndəki döl də hərəkət edir və vəziyyət normallaşır.

Bu üsullarla tərs gəlişi aradan qaldırmaq mümkün olmayanda xüsusi mütəxəssislərə müraciət etmək lazım gəlir.

Normal doğuşun iki forması var: baş gəliş, atlı gəliş. Baş gəliş ən asan və müvafiq gəliş, atlı gəliş isə nisbətən çətin gəliş hesab edilir.

1) Mamaça qadının uşaqlıq yollarına əl salıb uşağın hissələrinə görə gəlişi müəyyənləşdirir.
2) Atlı gəlişdə əgər bir ayaq doğulursa, onda mamaça əlini təmiz yuyub heyvan yağı ilə yağlayır və doğulan hissədən yapışaraq yavaş-yavaş uşağı uşaqlıqda çevirir. Bunun üçün mütləq təcrübə qazanmaq lazımdır.

Mamaçalıqda bir yardım forması da «aralığın darlığı»nda göstərilən yardımdır.

- ❖ Bəzən uşaqlıq yolları dar olanda və ya doğulan uşağın çəkisi böyük olanda mamaça yenə də əlini heyvan yağı ilə yağlayıb uşaqlıq yoluna salır və uşaqlıq yolunu genişləndirməyə çalışır. Buna türkəçarədə «dövrələmə» deyilir.
- ❖ Uşaq doğulandan sonra onun göbək bağırsağı (bu, elmi təbabətdə «göbək ciyəsi» adlanır) kəsilir. Göbək kəsilməmişdən qabaq uşağa «göbəkdən qan verilir», yəni göbək ciyəsi anadan uşağa doğru bir neçə dəfə sığallanır. Mamaçalar bunu xüsusi qiymətləndirirlər. Belə hesab edirlər ki, bu, uşağın sağlam böyüməsinə kömək edir. Bundan sonra əvvəlcədən odda qızdırılmış qayçı və ya bıçaqla göbək bağırsağı kəsilir. (Göbək bağırsağı kəsilməmişdən əvvəl hər iki tərəfdən iplə bağlanır.) Göbək bağırsağı kəsildikdən sonra onun «ana ucuna» yük asırlar. Mamaçalar belə hesab edirlər ki, əks təqdirdə uşaqyoldaşı və göbək bağırsağı «yuxarı qalxıb ürəyə vurar» və hamiləni öldürərlər.

Uşaq doğulduqdan sonra uşaqyoldaşıcift doğulmalıdır. Uşaq–yoldaşının doğuşu gecikdikdə mamaçalar hamiləyə bir neçə formada yardım göstərirlər.

- o Əvvəlcə zahıya şərbət içirirlər. Sonra ona səhəng, müasir dövrdə isə butulka pilədirlər. Bu zaman qadının qarnında təzyiq artır.
- o Bu üsul kömək etmədikdə mamaça əlini yumruq şəklinə salıb uşaqlığın dibinə təzyiq edir.
- o Uşaqyoldaşından bir hissə qopub uşaqlıqda qalanda zahıda qanaxma baş verir. Belə halda mamaça əlini təmiz yuyur, yağlayıb ehtiyatla uşaqlığa yeridir. Əlin yanı ilə qırıntı sıyrılıb çıxarılır.
- o Uşaq doğulan kimi yuyundurulur.

- Uşaq, uşağı qalmayan ailəyə məxsus olursa, onda həmin uşaq 40 gün «murdar» saxlanılır ki, özündən yeylər ona toxunma–sınlar.
- Bir qayda olaraq çağa 3, 7, 10 və 40 günlüyündə çimizdirilir.
- Zahı mamaçanın nəzarətində saxlanılır.
- Zahı on gün yatdıqdan sonra qırx gün müddətinə ağır işlərdən, soyuqdəymədən qorunur.

Mamaçalar sonsuzluğun aradan götürülməsi ilə də məşğul olurlar. Xəstəliyi aşkar etmək üçün qadınların qarnı üstündən yoxlanır və ya uşaqlıq yoluna əl salınır. Qadın sonsuzluğunun səbəbi bir neçə amillə əlaqələndirilir:

a) uşaqlığın önə, arxaya və yanlara əyilməsi;
b) uşaqlığın enməsi yaxud qalxması;
c) qız uşaqlığı;
d) pərdəli uşaqlıq.

- Uşaqlıq hansı tərəfə əyilmişsə, onun əks tərəfinə küpə salıb yerinə yaxı qoyurlar. Uşaqlıq arxaya əyilərsə, bel nahiyəsinə küpə salınır. Uşaqlıq önə əyilmişsə, uşaqlıq yoluna qozdan iri məlhəm qoyulur. Arxaya əyilmişsə, düz bağırsağa qabıqlı yumurta yeridilir.

Mamaçalar uşaqlığın hozlanmasını qadın xəstəliklərinin başlıca səbəbi sayırlar.

Sınıqçılıq

Sınıqçılıq elmi təbabətin travmatologiya ixtisasına uyğundur. Sınıqçılıqla həm kişilər, həm də qadınlar məşğul olurlar. Sınıqçılıq daha çox ailə ənənəsinə əsaslanır. Sınıqçı əsasən sınığı müalicə etmək, çıxığı yerinə salmaqla məşğul olur. Sınıqçılar əlləri ilə sınığı və ya çıxığı müəyyən etmək vərdişinə yiyələnirlər.

- Sınmış sümüyün ucları mümkün qədər əvvəlki vəziyyətə gətirilir, sonra sınıq olan nahiyəyə yaxu salınır.

- Bəzən sınıq iplə bir-birinə bağlanmış müxtəlif uzunluqda ağac parçaları ilə fiksə edilir.
- Əgər sınıq əyri bitişibsə, onda sınıqçı sınıq nahiyəsinə xüsusi məlhəm qoyub bağlayır. Həmin məlhəmin təsirindən sümük döyənəyi yumşalır, sınıqçı bitişməni ayırıb sınmış sümüyü düzəldir.
- Bəzən sınıqçıya köhnə çıxıqla əlaqədar müraciət edirlər. Bu zaman oynaq üzərinə xüsusi məlhəm qoyulur. Oynaq boşluğundakı qan sorulduqdan sonra çıxıq yerinə salınır.
- Bazunun vərdiş halını almış çıxığı yerinə salındıqdan sonra qoltuq altına yumurta böyüklükdə yumru bir şey qoyulur.

Dəlləklik

Əvvəlki dövrlərdə türkəçarədə dəlləklər bir növ cərrahi işlər görürmüşlər. Diş çəkmək, sünnət etmək, qan almaq, irinli yaraları deşmək və s. dəlləklərin işi olmuşdur. Bu gün də sünnət etmək və diş çəkmək üçün bəzən dəlləklərə müraciət edirlər.

Çöpçülük

Türkəçarədə çox nadir sahədir. Yeganə işləri körpə uşaqların burnunda qalmış «çöpləri» piləyib çıxarmaqdır. «Çöp» adlanan müxtəlif qida qırıntıları və ya uşağın udmaq istədiyi yad cisimlər burun ciblərinə ilişib qalır və südəmər uşaqlarda öyümə, qusma və ishal əmələ gətirir. «Çöp»ü üç üsulla çıxarırlar.

- Birinci üsulda uşaq yatandan sonra hər iki burun dəliyinə yağ qoyulur. Bu zaman «çöp» yağın təsirindən yumşalır və öz-özünə keçib gedir.
- İkinci üsulda uşaq vannanın içərisində ayaq üstündə saxlanılır və əmgək nahiyəsindən dayanmadan su tökülür. Uşaq həmin suyun altından nəfəs almaq istədikdə fınxırır və güclü hava təsiri «çöp»ü çıxarır.
- Üçüncü üsulda bir nəfər uşağı üzü çöpçüyə doğru möhkəm tutub saxlayır. Çöpçü bir əli ilə uşağın başını köməkçi şəxsin

sinəsinə sıxır. Uşağın dili aşağı basılır, burun dəlikləri ardıcıl olaraq tıxanır, digər burun dəliyinə güclü təzyiqlə hava püflənir. Bu zaman burunda qalmış «çöplər» çöpçünün əlinə tökülür. Burun piləndikdən sonra üç gün uşağa pəhriz yeməkləri verilir. Əgər qusma, öyümə davam edirsə, uşağa bir neçə dəfə çay qaşığı ilə limu duzu məhlulu içirdirlər.

Keyikçilik

Şərqdə geniş yayılmış qədim iynəbatırma üsuluna oxşayır. Bu əməliyyata keyikvurma deyilir. Keyik — türkəçarədə vətərlərə verilmiş addır. Keyikvurma xüsusi bilik və vərdiş tələb edir. Bununla məşğul olana nadir hallarda rast gəlmək olur. Keyikvurma əzələ ağrılarında, oynaq ağrılarında tətbiq olunur.

Keyikvuran keyikləri (vətərləri) vurmaq üçün adi pinəçi bizindən istifadə edir. Biz misdən hazırlanır. Keyikvurmada əsas məsələ keyiklərin vurulma nöqtələrini aşkar etməkdir. Keyikləri vurmaq üçün bizin ucu lazımi nöqtənin üzərinə qoyulur, sonra arxa hissəsindən zəif zərbə ilə vurulur və biz bədənə sancılır. Keyikin keyfiyyətli vurulması onunla müəyyən olunur ki, bizin batdığı nöqtədən sarı rəngli maye — limfa mayesi çıxsın. Əgər qan çıxarsa, əməliyyat təkrar edilir. Keyikvurmanın təsiri dərhal hiss olunur və xəstə yüngülləşir.

Qarıqçılıq

Qarıq — söyüddən hazırlanmış, 40–50 sm uzunluqda, bir qədər qövs şəklində, hamar, baş barmaqdan bir qədər yoğun ağac parçasına deyirlər. Qarığın uc hissəsinə yumşaq olsun deyə saqqız yapışdırırlar. Qarıqçı bu alətlə «tikə qalma»nı müalicə edir. Tikə qalma yeyilmiş qidanın qida borusunda ilişməsidir. Tikənin ötürülməsinə qarıqlama deyirlər. Qarıqçı xəstəni acqarına qəbul edir. Xəstə ağzı açıq vəziyyətdə qarıqçı ilə üz-üzə oturur. Qarıqçı bir əli ilə xəstənin dilini ağzından bayıra dartır. O biri əlində tutduğu qarığı xəstənin qida borusuna yeridir. Tikə mexaniki üsulla itələnir. Qarıqlama bəzən

mədənin və qida borusunun deşilməsinə səbəb olduğundan çox təhlükəlidir. Xəstələr qarıqçılara nadir hallarda müraciət edirlər.

Türkəçarədə qeyri-empirik üsullarla müalicə edən şəxslərə də (dini ayin və ovsunlarla müalicə aparan dindarlar, baxıcılar, mollalar, seyidlər, cindarlar və b.) rast gəlmək olur. Bu sahədə dua, tasqurma, «baxdırma» yolları ilə müalicə əsas yer tutur.

ETNOETİOLOGİYA VƏ DİAQNOSTİKA

Elmi təbabətdə olduğu kimi, türkəçarədə də müalicədən qabaq xəstəliyin səbəbləri araşdırılır, diaqnoz qoyulur. Diqqət yetirsək, görərik ki, tibbi informasiya daşıyan folklor nümunələrində dərdin dərmanı ilə yanaşı, dərdi törədən səbəbə də işarə edilir:Günəş girməyən evə həkim girər.

- Azar təmizlikdən bezardır.
- Tox adam dişi ilə özünə qəbir qazar.
- Var evi kərəm evi, yox evi vərəm evi.

Göründüyü kimi, bu atalar sözlərində natəmizlik, qarınqululuq, eyni zamanda qidasızlıq xəstəlik törədən amillər kimi, təmizlik, normal yemək isə sağlamlığın şərtləri kimi nəzərə çatdırılır. Bəzi folklor nümunələrində xəstəliklərin təsnif olunmasına da rast gəlinir. Məsələn:

Yara var — dağlayarlar,
Yara var — bağlayarlar.

Türkəçarədə xəstəliklərin yaranma səbəbləri empirik yolla izah edildiyindən və çox vaxt elmi həqiqətlərə uyğun gəlmədiyindən bu amilləri «etnoetiologiya» adı altında öyrənmək lazım gəlir. (Etno — xalq, etiologiya — xəstəliyin səbəbi deməkdir).

Türkəçarədə etnoetioloji faktorlar əsasən aşağıdakılardır:

«Murdardan» yaranan xəstəliklər

Bu etnoetioloji faktorlardan yaranan xəstəliklər türkəçarədə murdar xəstəliklər adlanır. Bu qrupa zahiri əlamətləri qabarıq görünən, uzun sürən xəstəliklər daxildir. Elmi təbabətdə bədxassəli şiş, xroniki yara, cüzam, zöhrəvi xəstəliklər, qanqrena və s. kimi adlanan xəstəliklər türkəçarədə murdar xəstəliklər hesab olunur. Bu

qrupa aid edilən bütün xəstəliklər «murdarı murdar aparar» prinsipi ilə müalicə edilir.

Diksinmədən yaranan xəstəliklər

Türkəçarəyə görə, sağlam adam xəstə adamla rastlaşarkən onun xəstəliyindən diksinirsə, bu zaman o da həmin xəstəliyə mübtəla olur. Yoluxucu xəstəliklər, bəzi yaralar, uçuqlar diksinmədən əmələ gələn xəstəliklər sayılır.

Qorxudan yaranan xəstəliklər

Bu xəstəliklərin əsasında xəstənin qorxması durur. Üzərinə qəflətən heyvan hücum edən, təhlükəli hadisə ilə üzləşən, qəflətən bəd xəbər eşidən adamlarda yaranan xəstəliklərin səbəbi qorxu ilə əlaqələndirilir. Qorxudan yaranan xəstəliklərə əsasən ruhi xəstələnmələr aid edilir. Bu xəstəliklərin müalicəsində çox vaxt ovsundan istifadə olunur.

Soyuqdan və ya istidən əmələ gələn xəstəliklər

Türkəçarə insanı əhatə edən, onun gündəlik tələbatını ödəyən ərzağı, geyimi və s. iki qrupa bölür. Qruplar sadəcə olaraq istilik və soyuqluq adlanır. Məsələn, kartof, kələm — soyuqluq, ət, yağ, bal — istilik kimi hesab edilir. Xəstəliklərin əmələ gəlməsini insan bədəninə istiliyin və ya soyuqluğun təsiri ilə izah edirlər. Daxili xəstəliklər, bəzi yoluxucu xəstəliklər bu etnoetioloji faktorla izah edilir. Müalicə əks prinsiplə qurulur. Yəni soyuqluqdan yaranan xəstəliklərin müalicəsində istilikdən və əksinə, istilikdən yaranan xəstəliklərin müalicəsində soyuqluqdan istifadə olunur.

Umsunmadan əmələ gələn xəstəliklər

Umsunmaya bəzi yerlərdə «şişmə» də deyirlər. Əsasən zahıların, körpə uşaqların, südverən qadınların, hamilə qadınların və nəfsibəd adamların xəstəlikləri bu faktorla əlaqələndirilir. Qadınlarda

döşgəlmə, gözə qansızma, allergik şişlər umsunmanın nəticəsi hesab edilir. Müalicədə etnoetioloji faktor nəzərə alınır. Yəni xəstə nədən umsunubsa, «şişibsə», həmin yemək ona verilir. Bəzən konkret yeməyin növü məlum olmadıqda xəstəyə «umma» verilir. «Umma» bir neçə evdən yığılmış müxtəlif yeməklərin qarışığıdır. Bəzən umsunmadan əmələ gələn xəstəliyin səbəbi nəzərə alınmır və empirik müalicə tətbiq edilir.

Çiləbasma

Çilə — ayrı-ayrı adamların mənfi təsiridir. Zahılar, təzə gəlinlər, xüsusən yeni doğulmuş uşaqlar çiləbasma nəticəsində xəstələnirlər. Çilə insan bədənində qırx gün ərzində yaşayan ruh kimi izah olunur. Təzə gəlinlərdə sonsuzluq, zahılarda ağzın, üzün əyilməsi, südəmər uşaqların gec yeriməsi, gec diş çıxarması, gec danışması, uşağın zəif inkişafı ilə əlaqələndirilir. Çiləbasmanın müalicəsi bir növ ovsunla həyata keçirilir və buna çilə kəsmək deyirlər.

Bədnəzərdən əmələ gələn xəstəliklər

Bir çox xəstəliklər, bədbəxt hadisələr, o cümlədən işin düz gətirməməsi bədnəzərlə əlaqələndirilir. Belə hesab edilir ki, bəzi adamların baxışlarında uzaq məsafədən adamlara təsir edib xəstəlik əmələ gətirmə gücü var. Bədnəzərdən əmələ gələn xəstəliklər ovsunla, bir çox hallarda isə empirik müalicə vasitələri ilə sağaldılır.

Bədxah ruhların təsirindən əmələ gələn xəstəliklər

Ruhlar, xüsusən xəstəlik törədən ruhlar haqqında xeyli məlumat hifz olunmuşdur.

İnsult, infarkt, hamiləlik psixozları və bəzi ruhi xəstəliklər türkəçarədə bədxah ruhların törətdiyi xəstəliklər hesab edilir. Bu xəstəliklərin müalicəsində daha çox ovsun ayinlərindən istifadə olunur.

Anadangəlmə xəstəliklər

Müasir elmi təbabətdə olduğu kimi, türkəçarədə də bir çox xəstəliklər anadangəlmə və ya nəsli xəstəlik kimi tanınır.

Ekstremal faktorlarla izah edilən xəstəliklər

Türkəçarədə ətraf mühitin qeyri-əlverişli faktorları ilə izah edilən bir çox xəstəliklər vardır. Bu xəstəliklərə soyuqdəymə, istilikvurma, donvurma, ildırımvurma və s. nəticəsində əmələ gələn xəstəlikləri aid etmək olar.

Diaqnozlaşdırma

Xəstəliyin aşkarlanmasında türkəçarəçi bir neçə üsuldan istifadə edir və bəzi əlamətlərə xüsusi adlar verirdi. Məsələn, quduzluq xəstəliyinin əsas əlaməti «küçükləmə»dir. Ara həkimi xəstəni sorğuya tutur. Xəstəni quduz heyvan dişləmişsə və xəstənin sidiyində ağ rəngli kiçik parçalar aşkar edilmişsə, ona quduzluq «diaqnozu» qoyulur. Sorğu ilə yanaşı, türkəçarəçi «baxma» üsulundan istifadə edir. Ara həkimi xəstəyə baxır, onun bədənini «əlləyir» və bununla xəstəliyi aşkar edir.

Xüsusi müayinə üsulları da vardır. Məsələn, yaman xəstəliyinə diaqnoz qoymaq üçün diri siçan yamanın üzərində saxlanılır. Əgər siçan yamanın üzərində atılıb-düşərsə, xoşxassəli, sakit dayanarsa, bədxassəli yaman olması diaqnozlaşdırılır.

XƏSTƏLİKLƏRİN ADLANDIRILMASI

Türkəçarədə xəstəliklərin adlandırılmasının iki əsas formasına rast gəlinir.

Klassik Şərq forması

Bu adlandırmada Şərqdə geniş yayılmış ərəb və fars sözlərindən istifadə olunurdu. Məsələn, vərəm, babasil, sil, həsbə və s.

Milli forma

Xəstəliklər əsasən qədim türk sözləri ilə adlandırılırdı. Məsələn, yaman, qılyaman, dolama, başağrısı, gözə qangəlmə, ayaqişləməsi və s. Göründüyü kimi, bəzi xəstəliklər müəyyən əlamətlərinə görə adlandırılırdı. Belə xəstəliklərin müalicəsində başlıca diqqət əlamətin aradan götürülməsinə yönəldilirdi. Bu üsulla çox vaxt xəstəlik yox, onun əlaməti müalicə edilirdi. Buna səbəb xəstəliklərin bir-birindən ayırd edilməməsi, yəni differensasiya edilməməsidir.

Xəstəliyin formaları

Məlumdur ki, hər bir xəstəliyə kəskin, xroniki və s. formalarda rast gəlmək olur. Türkəçarədə də xəstəliklərin bir neçə forması ayırd edilirdi.

Xəstəliyin erkək forması

Bu xəstəlik forması bədənin adətən bir nahiyəsində müşahidə olunur, artmağa meylli deyil, yüngül gedişlidir. Məsələn, bədəndə limfa vəzinin şişməsi müşahidə edilibsə, buna «xanəzirin (və ya xıyarəngin) erkəyidir» deyirlər. Elmi təbabətdə bu forma ağırlaşmalarla müşahidə olunmayan və monomorf əlamətli xəstəliklərə uyğun gəlir.

Xəstəliyin dişi forması

Bu formaya artmağa meylli, polimorf əlamətli xəstəliklər daxildir. Məsələn, çiban «çibanın dişisi» kimi qiymətləndirilirdi.

Bədəndə müxtəlif yerlərdə dövri olaraq eyni bir xəstəliyin əlamətləri müşahidə olunursa, bu da dişi formaya aid edilirdi. Xəstəliklərin xroniki formaları türkəçarədə «xəstəlik cana keçib» və ya «sümüyə işləyib» kimi qiymətləndirilir.

Xəstəliklərin ağırlaşmalarla müşahidə olunan formaları da var. Belə hallar türkəçarədə xəstəliyin «içəri vurub» kimi qiymət–ləndirilir. Məsələn, qızılca xəstəliyi daxili orqanların xəstələnməsi ilə müşahidə olunanda buna «qızılca içəri vurub» deyirlər.

Bəzən ara həkiminə xəstəliyin axırıncı mərhələsində müraciət edirlər. Belə hallarda xəstəliyin forması «vaxtı keçib» kimi qiymətləndirilir. Yəni xəstəliyin müalicə ilə sağalma vaxtı əldən buraxılıb.

RESEPTLƏRİN YARANMA YOLLARI

Türkəçarədə külli miqdarda müalicə üsulları və vasitələrindən istifadə olunur. Bu vasitə və üsullari müxtəlif yollarla "kəşf" olunmuşdu.Bura aşagidakilar aiddir.

Təsadüf nəticəsində əmələ gəlmiş vasitələr

Bu vasitə, adından göründüyü kimi, sırf təsadüflərin nəticəsində meydana çıxıb. Məsələn, xəstə hər hansı yeməyi qəbul etdikdən sonra yaxşılaşsa, bu cür xəstələrin müalicəsində həmin yemək məsləhət görülüb.

Passiv müşahidədən yaranan vasitələr

Bu yolla yaranan reseptlər əsasən heyvanların həyatını müşahidə etməklə meydana çıxıb. Toyuğun pətənəyinin iç pərdəsindən daş xəstəliklərinin müalicəsində istifadə olunur. Bu, belə bir müşahidənin nəticəsində yaranıb ki, adamlar toyuğun yeməyində qum dənələri görmüşlər və belə qənaətə gəlmişlər ki, toyuq pətənəsində daş əritmək xassəsi vardır.

Aktiv müşahidədən yaranan vasitələr

Bu yolla yaranan reseptlər daha çox məntiqə əsaslanır. Passiv müşahidədə zamanla aşkar edilən vəziyyət təhlil edilir və müalicə effekti olan ilkin vasitə axtarılır. Məsələn, türkəçarədə dəvə südündən babasil xəstəliyinin müalicəsində istifadə olunur. Bu, belə bir aktiv müşahidə nəticəsində meydana çıxıb: dəvə digər heyvanlardan fərqli olaraq babasil xəstəliyinə tutulmur. Xalq arasında belə bir məlumat vardır ki, bir çox xəstəliklər bədənə süd vasitəsilə keçir. Babasil xəstəliyində dəvə südündən istifadə edilməsi məhz buna əsaslanır. Lakin südü istənilən vaxt əldə etmək, onu saxlamaq, daşımaq bir çox çətinliklər törətmişdir. Bu zaman əsas diqqət dəvənin həyat tərzinə yönəldilmişdir. Məlum olmuşdur ki,

heyvanlar arasında yalnız dəvə dəvətikanı deyilən bitki ilə qidalanır. Buradan da babasilin müalicəsində dəvətikanından istifadə edilməsi ideyası yaranmışdır.

Oxşatma yolu ilə yaranan vasitələr

Bu vasitələrin yaranmasında daha çox ovsun prinsipi əsas götürülür. Belə bir inam bu günə kimi yaşamaqdadır ki, bədənin hansısa üzvünə oxşayan meyvələrdən müalicə məqsədilə istifadə oluna bilər. Məsələn, nar ürəyə oxşadığından ürək xəstəliklərində ondan istifadə olunur. Qaraciyər xəstəliklərində heyvanın qaraciyəri müalicə vasitəsinə çevrilmişdir.

Ovsunla bağlı vasitələr

Qədim dövrlərdə ovsun ayinlərində həm də müxtəlif otlardan, heyvan əzalarından istifadə edilmişdir. Sonradan ovsun ayinləri aradan çıxmış, müalicə vasitələri isə saxlanmışdır. Məsələn, ovsun ayinlərində üzərlik bitkisindən geniş istifadə olunmuşdur. İndi başağrısında üzərlik tüstüsündən istifadə edilir.

Yaranma yolu məlum olmayan vasitələr

Türkəçarədə elə müalicə vasitələrinə rast gəlmək mümkündür ki, həmin vasitələrin yaranmasını qeyd olunan üsulların heç biri ilə əlaqələndirmək olmur.

Türkəçarədə başqa xalqların təbabətindən gəlmiş vasitələrlə qarşılaşırıq. Məsələn, Azərbaycanla heç bir əlaqəsi olmayan fil sidiyindən qadın sonsuzluğunu aradan qaldırmaq üçün istifadə edilib. Bu müalicə vasitəsinin kənardan gəlmə olduğunu aşkar etmək çətin deyil.

RESEPTLƏRİN FORMALARI

Türkəçarə reseptlərini tərkiblərinə görə dörd qrupa bölmək olar:

Sadə reseptlər

Yalnız bir komponentdən ibarət olan reseptlərdir. Məsələn, çibanı sağaltmaq üçün onun üzərinə bağayarpağı bağlamaq məsləhət görülür.

Mürəkkəb reseptlər

Eynimənşəli bir neçə komponentdən ibarət olan reseptlərdir. Məsələn, başağrısı zamanı müxtəlif güllərdən düzəldilmiş gül yastığında yatmaq məsləhət görülür. Bəzi irinli yaraların müalicəsində yeddi yarpağın məlhəmindən istifadə olunur. Bu zaman yeddi müxtəlif bitkinin yarpağı əzilib bir-birinə qarışdırılır.

Qarışıq reseptlər

Müxtəlifmənşəli komponentlərdən ibarət olan reseptlərdir. Məsələn, itdirsəyinin müalicəsində bağayarpağı suyunda yoğrulmuş xəmir məsləhət görülür. Belə reseptlərin tərkibində həm bitki, həm heyvan, həm də mineral mənşəli vasitələrə rast gəlinir.

Kompleks reseptlər

Belə reseptlər ovsun ayinləri ilə müşayiət olunur. Bu zaman həm dərman vasitəsinin, həm də ovsunun təsir effekti əsas götürülür.

MÜALİCƏ ÜSULLARI

Türkəçarədə müalicə üsullarının seçilməsi xəstəliyin etnoeti–ologiyası, ağırlıq dərəcəsi, gedişi və s. nəzərə alınmaqla həyata keçirilmişdir. Türkəçarədə aşağıdakı müalicə üsulları geniş yayılmışdır**:**

Yemək

Müalicə effekti olan bitki və heyvanmənşəli qida qəbul edilir. Bu zaman təsir effektindən asılı olaraq qidanı ənənəvi qaydada bişirilmiş və ya çiy halda yemək məsləhət görülür. Məsələn, uşaq gecə sidiyini saxlaya bilməyəndə ona qızılözən yedizdirirlər. Qəbizlikdə ərik və ya albuxara qurusu yemək məsləhətdir.

Bitkinin suyunu — şirəsini çıxarmaq

Bəzi bitkilərin suyu-şirəsi çıxarılaraq istifadə olunur. Məsələn, qəbizlikdə bağayarpağını əzib suyunu çıxarırlar və onu xəstəyə verirlər. Adətən, suyu-şirəsi çəkilən bitkidən təzə və çiy halda istifadə olunur.

Dəmləmə

Bir çox müalicə otları çay kimi dəmlənib içilir. Məsələn, səhləb otunun dəmləməsi soyuqdəyməyə xeyirlidir.

Buxara vermə

Bitki və ya mineral qaynadılır, xəstə buxarla nəfəs alır. Məsələn, başağrılarında xəstə özünü kəklikotu və ya daş buxarına verir.

Qaynatma

Bəzi dərman vasitələri qaynadılır və qaynartı xəstəyə verilir.

Tüstüyə vermə

Bəzi dərman vasitələri yandırılır və onun tüstüsü xəstəyə verilir.

İyə vermə

Bəzi bitkilərin və ya heyvan ifrazatlarının qoxusundan müalicə məqsədilə istifadə olunur.

Sürtmə

Bəzi dərman vasitələri təbii halda və ya məlhəm şəklinə salınıb bədənin xəstə nahiyəsinə sürtülür.

Təpitmə

Müxtəlif bitkilərdən və ya xəmirdən təpitmə qoyulur.

Döşəmə

İstifadə ediləcək bitki və ya heyvan hissəsi xəstə nahiyəyə döşənir.

Tamponetmə

Düzbağırsaq və uşaqlıq xəstəliklərində dərman vasitələri tampon edilib boşluğa oturdulur.

Vannalar

Bir çox müalicə otlarının suyu, heyvan ifrazatları və ya təbii mineral sular vanna şəklində qəbul edilir.

Həblər

Daxili xəstəliklərdə dərman vasitələrinin həb şəklində qəbul edilməsi geniş tətbiq olunur.

Bunlarla yanaşı, türkəçarədə bir çox fiziki metodlar da vardır:

Dağlama

Sağalmayan yaralar, irinli yaralar (yayılmağa meylli yaralar), yamanlar dağlama ilə müalicə olunur. Bunun üçün misdən hazırlanmış mil və ya biz alovda qızdırılır və xəstə nahiyəyə basılır. Ayrı-ayrı hallarda dağlama saxsı parçası və ya parça yanığı ilə əvəz olunur.

Qanalma

İki əsas üsulla aparılır. Təbii vasitə kimi zəlidən istifadə edilir. Bəzi xəstəlikləri sağaltmaq üçün yaz və payız aylarında bədənin müxtəlif yerlərinə bir neçə zəli qoyulur. Qanalma fiziki üsulla da həyata keçirilir. Bunun üçün metaldan hazırlanmış neştərlərdən istifadə olunur: damar neştərlənir ki, "artıq" qan bədəndən çıxsın.

İynəbatırma

Keyikvurmada istifadə olunur.

Dəriyə salma

Bəzi xəstələr və ya xəstənin hər hansı bir əzası qoyun, keçi, inək və s. heyvanların təzəcə soyulmuş dərisinə bükülür. Heyvanların qursaqlarından, malın qarnından da istifadə etmək xeyirlidir.

Quma və ya peyinə basdırma

Bəzi xəstəliklərdə xəstə quma və ya köhnədən qalıb qızışmış peyinə basdırılır. Məsələn, əllərdə ekzema olarsa, xəstə əllər qızışmış peyinin içinə salınır və bir müddət peyində saxlanılır.

Qırovda və şehdə gəzmək

Ayaqyalın gəzmək türkəçarədə müalicə vasitəsi sayılır. Məsələn, dalağı şişmiş adama şehli ot üzərində və ya payız vaxtı qırovda ayaqyalın gəzmək məsləhət görülür.

Araq(cövhər) çəkmək

Araq çəkmək üçün iri bir qazan götürülür. Qazan arağı çəkiləcək bitki ilə doldurulur. Otun üzərinə su tökülür. Su otdan yuxarı çıxmamalıdır. Sonra ikinci bir qab (içərisində daş) otun üzərinə qoyulur. Qabın kənarları elə durmalıdır ki, qazandan qaba su dolmasın. Sonra konus şəklində, sərpuş adlanan xüsusi qab odun üzərindəki qabın içinə qoyulur. Sərpuşun kənarları qazanın ağzına uyğun olmalıdır. Qazanla sərpuşun kənarları elə xəmirlənir ki, alovdan buxar kənara çıxmasın. Sonra qazan vam odun üzərinə qoyulur və sərpuşun içinə su tökülür. Bu prosesdə alınacaq arağın qatılığından asılı olaraq bitki qaynadılır və

mütəmadi olaraq sərpuşun içindəki su soyuq su ilə dəyişdirilir. Proses başa çatandan sonra qazanın ağzı açılır, otun üzərindəki qaba yığılmış maye — araq götürülür və istifadə edilir.

TÜRKƏÇARƏDƏ BİTKİ MƏNŞƏLİ RESEPTLƏR

Bitki mənşəli reseptlər öz növbəsində aşagidaki qruplara ayrilir:

A. Meyvə Mənşəli Reseptlər

Alma

- Mədənin dərmanı hesab edilir.
- Arıqlamaq məqsədilə çoxlu alma yemək məsləhət görülür.
- Qanazlığında da alma yemək məsləhətdir.
- Əfsanələrimizdə və nağıllarımızda almanın sonsuzluğu aradan götürməsi, insanı cavanlaşdırması haqqında məlumatlar vardır.
- Ürəkbulanması zamanı "nəfti alma"nı yemək faydalıdır.
- İstənilən növ alma közdə bişirilir və ya qaynadılır, üzə bölünüb qulaqağrısında qulağa bağlanılır.
- Qadınlarda uşaqlıq düşəndə "müsür alma" vam küldə bişirilir, ortası deşilir və uşaqlıq həmin alma ilə içəri salınır, alma uşaqlıq yolunda qalmaqla aralığı bağlanır.

Alça

- Boğazağrısında alça lavaşını (göy alça qaynadılır, ətli hissəsin–dən lavaş düzəldirlər) boğaza bağlamaq xeyirlidir.
- Alça turşusu yandırılır, külü heyvan yağına qatılıb sarıyaraya bağlanır
- Ayaq barmaqlarında sulu qaşınma varsa, alça qaynadılıb ayağa bağlanır. Həmin xəstəlikdə turş alçanın kötüyünün qabığı və

özəyi bir yerdə qaynadılır və ayaq həmin qaynartı ilə vanna edilir.

Qoz

- Qoz ağacı çox olan dağətəyi ərazilərdə zobla xəstələnmə halları da çox olur. Yerli əhali zobla xəstələnmənin səbəbini həm də qoz ağaclarının təsiri ilə əlaqələndirir. Müxtəlif xəstəliklərin müalicəsində qozun meyvəsindən, çiçəyindən, yarpaqlarından, qolundan istifadə olunur.
- Qoz meyvəsinin ləpələrinin arasındakı pərdəni çay kimi dəmlə–yib içirlər. Bu, ürək və qaraciyər xəstəliklərinin dərmanı hesab olunur.
- Qanazlığında qoz ləpəsi şəkərlə döyülüb xəstəyə yedizdirilir.
- Qoz ləpəsi kişmişlə birlikdə cinsi qabiliyyəti artırır.
- Qozun 200 qram iç pərdəsi 0,5 l araqda qaranlıq yerdə 10 gün saxlanılır. Sonra həmin mayedən qan təzyiqini aşağı salmaq üçün gündə üç dəfə içilir.
- Qadın xəstəliklərində qoz ləpəsinin çiçəyinin dəmləməsini iç–mək xeyirlidir.
- Qoz meyvəsindən (fındıqdan bir qədər böyük olanda) yeddi ədədini udanda göz ağrısı kəsir.
- Qoz, boz xəstəliyini də müalicə edir.
- Huşu tez-tez gedən adama qoz yedizdirirlər.
- Qozun yaşıl yarpağını isladıb bədənin ağrıyan yerinə döşəyirlər.
- Qoz ləpəsi balla döyülüb bədənə sürtüləndə də ağrılar azalır.
- Qozun yaşıl qabığı dəmrov olan nahiyəyə sürtülür.
- Qoz ləpəsi çilədağ və quyruq yağı ilə birlikdə döyülüb fındıq böyüklüyündə qara yuna bükülür, uşaqlıq və yumurtalıq ilti–hablarında uşaqlıq yoluna yerləşdirilir.
- Qozun meyvəsi fındıq boyda olanda ağacın dibini qazıb əmici tellərindən çıxarır, 0,5 l arağa salıb ağzını bağlayır, qaranlıq yerdə saxlayırlar.

- Qoz yetişən vaxta qədər buna əl vurulmur. Əmələ gəlmiş sarı rəngli maye vərəm xəstəliyi olan adamlara içirdilirmiş.
- Babasil xəstəliyini müalicə etmək üçün 50-60 ədəd qozun ləpəsi 500 qram balla döyülüb qarışdırılır və hər gün yatma–mışdan qabaq xəstəyə yedirdilirmiş.
- Qoz çaqqalasını fındıqdan bir balaca böyük olanda qabığı soyulur, babasil xəstəliyi olanların düzbağırsağına yerləşdirilir və 40 dəqiqə saxlanılır. Bu, bir neçə dəfə təkrarlanır.
- Qozun iç pərdəsindən 100 qram 0,5 litr araqda isladılır və arağın rəngi dönənədək saxlanılır. Mədə yarası olan xəstələrə bu mayedən içmək fayda verir.
- Qozun çaqqalası suda qaynadılır, sonra qaynartı balla qarışdırılır və boğaz ağrılarında boğaz bu qaynartı ilə yaxalanır.
- Zob xəstəliyini müalicə etmək üçün 1 kq qoz ləpəsi 0,5 kq balla qarışdırılıb döyülür, 20 gün işıqlı yerdə saxlanılır. Bundan gündə bir çay qaşığı miqdarında xəstəyə yedirdirilir.
- Qaynadılmış qoz yarpağı xına ilə qarışdırılıb başa yaxılır ki, saç tökülməsin.
- Dişağrısını kəsmək üçün qoz ləpəsi yandırılıb dişə qoyulur.
- Qoz yarpağı kölgəli yerdə qurudulur. Sonra döyülüb un kimi edilir və yanığa səpilir.
- Göbək yırtığını sağaltmaq üçün qoz qabığının yağı ilə qarış–dırılıb göbəyə bağlayırlar.

Ərik

- Öskürəyi kəsmək üçün ərik ağacının kilitkəsi (şirəsi) çayla içilir.
- Köpəndə ərik ağacının kömürünü dəmləyib içmək xeyirlidir.
- Acı ərik toxumu qurd xəstəliyinə dərmandır.
- Bu, sarılıq xəstəliyində də xeyirlidir.
- Dodaqlarda yara olanda əriyin acı toxumları yandırılır, külü su ilə qarışdırılıb dodaqlara sürtülür.

- Əriyin acı toxumu, qarpız qabığı, baş tükü və yumurta qabığı ilə birlikdə yandırılır, külü ələnib ağız yaralarına səpilir.
- Qəbizlikdə ərik turşusu yemək xeyirlidir.
- Ərik odunu yandırılır, ishallı xəstə öz oturacağını onun tüstü–sünə verir.
- Ərik ağacının qabığı mal peyini, ilan köynəyi və kükürdlə bir–likdə yandırılır, zəhərli bunların tüstüsünə verilir.
- Qaraciyər xəstəliklərinə ərik yemək faydalıdır.
- Sarılıq xəstəliyində acı ərik toxumu qaynadılır, qaynartı qaşıq-qaşıq içilir.

Nar

- Budaqlarından, meyvəsindən müalicə məqsədilə istifadə olunur.
- Nar meyvəsinin qabıqları qurudulur, döyülüb əzilir, ishallı xə–stələrə verilir, yanığa səpilir.
- Nar budaqları qaynadılır, qaynartıya turş nar suyu əlavə edilir və bu mayedə xəmir edilib qarına təpitmə qoyulur ki, ishal kə–silsin.
- Şirin nar şirəsi gülabla qarışdırılıb qarabasmalı xəstəyə içirdilir.
- Nar qabığının qurusu döyülüb ağızgəlmədə ağıza səpilir.

Tut

Türkəçarədə tut ağacının köklərindən, ağacından, yarpaqlarından və meyvələrindən geniş istifadə olunur.

- 100 qram tut qurusu bu qədər şabalıd içi ilə birlikdə döyülüb astma xəstəliyi olanlara verilir.
- Sətəlcəmdə tut doşabı içirilir. Tut sirkəsi başağrısında başa və bədənə çəkilir.
- Tut ağacının qabığı və özəyinin yonqarı qankəsici kimi yaraya bağlanır.
- Boğaz məzməzəyində tut doşabı içmək faydalıdır.
- Doşab tənbəlliyi aradan götürür, ömrü uzadır. 50 qram tut arağı quru tutla birlikdə qan təzyiqini salmağa kömək edir.

- Qulaqdibi xəstəliyində tut sirkəsi ilə kompres edilir.
- Dalaq şişlərində tut doşabı xeyirlidir.
- Barmaqlarda qaşınma olduqda körpə tut ağacının zoğundan çıxan südü qaşınan yerə sürtürlər.
- Tutun meyvəsi gün altında qıcqırdılır, yel xəstəliyi olan adam bu qıcqırtı ilə vanna edilir.

Şaftalı

- Qızdırmadan baş verən ürək və mədə ağrısında şaftalı tumu ye–mək xeyirlidir.
- Bu həm də sancını kəsir.
- Qurdqovucu kimi acqarına bir neçə şaftalı yeyirlər.

Gilənar

- Gilənar dənəsi (çəirdəyi) döyülüb un şəklinə salınır, su ilə qarışdırılıb içilir ki, ishallı kəssin.

İydə

- İydənin unu və yarpaqlarının dəmləməsi ishallı xəstəyə faydalıdır.

Əncir

- Əncir südü dolama yarasını sağaltmağa kömək edir.
- Qulunc xəstəliyində ənciri qozla birlikdə yemək xeyirlidir.
- Əncirin südünü yumurta sarısı ilə tampon edib uşaqlığa oturdurlar ki, uşaq düşsün.
- Əncirin quru yarpağı balla qarışdırılıb babasil xəstəliyi olan–ların düzbağırsağına yeridilir.

Heyva

Türkəçarədə budaqlarından, meyvəsindən, yarpağından, çiçəyindən və toxumlarından istifadə edilir.

- Qaşınma zamanı şirin heyvanın yarpaqları dəmlənir və həmin ağacın dibindən götürülmüş torpaqla qarışdırılıb məlhəm edilir və qaşınan yerlərə sürtülür, ya da ondan çox duru məlhəm hazırlanır və xəstə həmin məhlulla çimizdirilir.
- Bu, məxmərəkdə daha çox xeyirlidir.
- Heyva yarpağı, heyva ağacının qabığı, tut ağacının körpə budaqları ilə birlikdə qaynadılır, həmin qaynartı ilə boğaz qarqara edilir.
- Heyva toxumlarının dəmləməsi sinəni yumşaldır.
- Heyva yarpağının hamar səthinin ağzı suyu ilə isladıb yaraya bağlandıqda yaranın ağzı açılır və irin təmizlənir.
- Heyva doşabından bir çay qaşığı götürüb çayla içdikdə öyümə və qusma kəsilir.
- Heyva yarpağının dəmləməsi qan təzyiqini salmağa kömək edir.
- Heyva mürəbbəsi ürəkağrısını azaldır.

Üzüm

- Şirin üzüm zahılıq qanaxmalarını və sancılarını kəsir.
- Gözün görmə qabiliyyətini artırmaq üçün gözə təzə kəsilmiş üzüm tənəyindən cixan suyu tökürlər.
- Saçın tökülməsinin qarşısını almaq üçün başı üzüm sirkəsi ilə yuyurlar.
- Üzümün suyu-şirəsi çıxarılıb 5-10 gün saxlanılır və abqora alınır. Boğaz abqora (qora suyu) ilə qarqara edilir. Abqora bağırsaq yaralarını yüngülləşdirir.
- Üzüm suyu qabda yığılır, bir neçə ay saxlanılır, göbələk xəstə–liklərində qaşınan yerə sürtülür.

B.Bostan-Tərəvəz Bitki Mənşəli Reseptlər

Qovun

- Qovun qabığının qurusu dəmlənir, böyrək ağrılarında bu dəm–ləmədən istifadə edilir.
- Qovun qabığı, qarğıdalı teli və kəklikotu ilə birlikdə dəmlənib içiləndə daha xeyirli olur.

Qarpız

- Qarpız yemək böyrəyə çox xeyirlidir.
- Qarpız qabığının qurusu sarıyaraya məlhəmdir.

Qabaq

- Qabaq toxumunu qurdqovucu dərman kimi çiy-çiy yeyirlər.
- Qabaq külünü tənasül orqanlarının yaralarına səpirlər.

Pomidor

- Tomatından daha çox istifadə olunur.
- Yanıqlarda və dolamada tomat sürtmək xeyir verir.

Kələm

- Pörtlədilmiş kələm yarpağı hovların, qulaqdibinin qabağını alır.
- Kələm yarpağı çiy-çiy baş şişinə qoyulur.
- Kələmin ala çiçəkləri qəbizliyin qabağını alır.
- Kələm çiçəyi dişlərdəki sarılığı götürür.
- Bişmiş kələm səsi açır, babasilə kömək edir.

Kartof

- Kartofun qabıqları yanığı müalicə edir.
- Başağrısını kəsmək üçün kartof doğranıb alına döşənir.
- Hamiləliyin qarşısını almaq üçün göyərmiş kartofun suyunu içirlər.

Kök

- Kökü qaşıyıb quyruq yağı ilə qarışdırır və qaşınan yerə sürtürlər.

Badımcan

- Badımcanın içi çıxarıldıqdan sonra dolamalı barmaq onun içinə salınıb bağlanır.

Bibər

- Xəstədə titrətməni götürmək üçün bibər pendir mayası ilə qarışdırılıb bədənə çəkilir.
- Don vuran yer acı bibərlə ovulur.

Xiyar

- Xiyar arağı qızdırmanı salır.
- Bu, məxmərəkdə də xeyir verir.
- Üzdəki ləkələri götürmək üçün üzə xiyar qabığı sürtülür.
- Körpə uşaqlarda vəzlər şişəndə (xiyərək xəstəliyində) xiyar iki yerə bölünüb həmin şişlərə bağlanır.
- Həsbədə və qızılcada xiyar suyu içilir.
- Xiyarın qabığı mədə ağrısına kömək edir.
- Qulaqdibi xəstəliyində xiyar üz edilib qulaqların dibinə bağlanır.

Soğan

- Soğan bişirilib çibana bağlanır.
- Qulaqağrısında soğan əzib suyunu ağrıyan qulağa tökürlər.
- Arı və ya əqrəb sancan yerə soğan sürtürlər.
- Xoruzinkdə bir neçə tük dibdən çıxarılıb yerinə döyülmüş çiy soğan bağlanır.
- Soğan suyu qoyun piyi ilə dəmlənib ağrıyan qulağa salınır.
- Soğan, paltar sabunu və südlə qarışdırılıb bişirilir. Onun içinə bir az un əlavə edilib (əsasən arpa unu) çibana bağlanır.
- İstiləməni salmaq üçün soğanı yandırıb bədənə çəkirlər**.**
- Aybaşı dayananda (olmayanda) soğan qabığı qaynadılıb içilir.
- Soğan, sabun, şüşə və pambıq birlikdə qaynadılıb irinli yaralara qoyulur.

- Soğan sarımsaqla döyülüb yağa atılır, 3-4 gün yağda qalıb qızdırıldıqdan sonra qotur yerə sürtülür.
- Baş soğan, əmənköməncі**,** çobanyastığı, sabun və əvvəlik suda qaynadılır, üstünə bir az un atılıb dolama çıxan barmağa bağlanır.
- Uşaq salmaq üçün soğan qabığının qaynartısını içirlər. Soğan suyu gözə salınarsa, gözdən gələn suyu kəsər.
- Bişmiş soğan qulağa bağlanarsa, ağır eşitməni aradan götürər.

Sarımsaq

- Bir parça sarımsağı dişağrısında dişin üstünə qoyurlar ki, diş–ağrısı keçsin.
- Sarımsağı sirkə ilə qarışdırıb xəstəni imalə edirlər ki, xəstənin qurdu təmizlənsin.
- Həmin məlhəm dazlığı da aradan götürür. İshalı kəsmək üçün sarımsaqlı qatıq yeyilir.
- Sarımsaq paslı dəmirə sürtülüb dəmrov olan yerə çəkilir.
- Ağrıyan qulağa sarımsaq suyu salınır.

Turp

- Turp yemək həzmə kömək edir.
- İllik turp üz edilir, üstünə duz səpilir. Ondan çıxan su qulaqdan gələn suyu saxlamaq üçün qulağa damızdırılır.
- Qara rəngli turpun içi oyulur, içinə bal doldurulur, bir həftə qaranlıq yerdə saxlanıldıqdan sonra yeyilir ki, böyrək ağrılarını kəssin.

Keşniş

- Bişirilmiş və toxumunun dəmləməsi qusmanı kəsir.
- Döyülmüşü başağrısına kömək edir.
- Keşniş nar şivi ilə birlikdə əzilib zoba bağlanır.

İspanaq

- İspanaq suyu zökəmli xəstələrin burnuna salınır.

- Qaynanmış suyu sinəni yumşaldır.
- İspanaq suyunu gözə qan gələndə gözə salırlar.

Tərxun

- Tərxunu kök adamlara daha çox verirlər.
- Tərxun vəba və taun olan yerin havasını təmizləyir.
- Diş ətinin ağrısını kəsmək üçün tərxunu çeynəmək faydalıdır.

Şüyüd

- Şüyüd suyu sancını kəsir.
- Şüyüd yağı şüşə unu ilə birlikdə qarını təmizləyir.

Kəvər

- Burun qanaxmasında kəvər suyunu buruna tökmək faydalıdır.

Mərəzə

- Mərəzə mədə ağrılarını kəsir.
- Qansızlığı olanlara mərəzə suyu içmək məsləhət görülür.

Nanə

- Nanə arağı mədə-bağırsaq yoluna xeyirlidir, sancıları götürür.
- Nanə ovuntusu babasildə düz bağırsağa ötürülür.
- Nanənin suyu qusmanı kəsir. İshalı, dişağrısını kəsir.

Reyhan

- Hərarəti salmaq üçün xəstənin yeməyinə reyhan qarışdırırlar.
- Reyhan toxumunun dəmləməsi öskürəyi kəsir.

Qodem (batrınc)

- Qodem toxumunun dəmləməsi böyrəyində daş olan xəstələrə faydalıdır. Təzyiqi salır.

Cəfəri (petruşka)

- Böyrək xəstəliklərinin müalicəsində cəfəri cövhərindən istifadə edilir.

C. Dənli Bitki Mənşəli Reseptlər

Arpa

- Başağrısını kəsmək üçün arpanı qaynadırlar və xəstəni buxarına verirlər.
- Bu məqsədlə arpa unundan bişirilmiş yalın buxarı da mən–fəətlidir.
- Arpa unu, qara turp və yumurta ağı suda qarışdırılıb horra bişi–rilir və döşgəlmədə döşə çəkilir.
- Arpa unu cırtaquşla birlikdə döyülüb qarışdırılır və qaşınan yerlərə çəkilir.
- Arpa xəmiri keşniş suyu ilə xanəzirə döşənir.

Buğda

- Qovrulmuş buğda (qovurğa) ishalı kəsir.
- Buğda unu yarpız suyu ilə məlhəm edilib zahılıq dövründə qadının qarnına döşənir.
- Buğda ununun halvası yeni doğulmuş uşağın göbəyinə bağlanır ki, uşaqda göbək qanaxması olmasın.
- Buğda unundan bişirilmiş quymaq yemək zahının bədənini möhkəmləndirir.
- Başağrısını kəsmək üçün qovrulmuş buğda başa bağlanır.
- Buğda qaynadılıb qulaqdibinə döşənir.
- Köhnə çıxıqları yerinə salmaq üçün əvvəlcə buğda qaynadılır, lüğabı ağ parçaya çəkilib çıxmış oynağa bağlanır.
- Oynağa yığılmış qan bir neçə günə sorulur və bundan sonra çıxıq yerinə salınır.
- Ana bətnində ölmüş uşağı salmaq üçün qadın saman buxarına verilir.

Noxud

- Qovrulmuş noxud ishalı kəsir.

- Uşaq salmaq məqsədilə qara noxudu bişirib qadının yuxa yerinə döşəyirlər.
- Qara noxudun qovrulmuşunu yemək babasilə xeyirlidir.
- Noxud şüşə ilə döyülüb qulaqdibinə bağlanır.
- Gecə sidik saxlaya bilməyən uşağa bişmiş qara noxud yedizdirilir.

Lobya

- Sarılıq xəstəliyində "qoca lobya" yeyilir.
- Böyrək xəstəliklərində lobya çiçəyinin dəmləməsi xeyirlidir.
- Lobya qaynartısı uşaq salır, bel və böyrək ağrılarını kəsir.
- Göz irinləyəndə lobyanı çeynəyib gözə bağlamaq xeyirlidir.

Çətənə

- Qovrulmuş çətənəni yemək uşaq bizquyruğunu tökür.
- 4-5 qaşıq çətənə toxumu iki tikə qənd yanığı ilə döyülür, sidik sistemi xəstəliklərində (məsələn, sidiyi saxlaya bilmədikdə) yatmamışdan qabaq bir çay qaşığı miqdarında içilir.

Küncüt

- Küncütün tüstüsü qaşınmaya xeyirlidir.
- Küncüt qara əqrəblə birlikdə yandırılır, tüstüsü xəstənin otura–cağına verilir ki, sidik yolları sağalsın.
- Küncüt yağı canavar ödü ilə qarışdırılıb övladı olmayan kişinin tənasül orqanına çəkilir.
- Kişi sonsuzluğunu aradan götürmək üçün 0,5 kq küncüt, bir kq quyruq piyi, bir kq bal, 0,5 kq zəncəfil, darçın, hil qarışdırılır və bundan hər gün bir xörək qaşığı miqdarında yeyilir.
- Sarılıqda küncüt yağı ilə şərab qarışdırılıb içilir.

Düyü

- Düyü yağı dəmirovu yüngülləşdirir.
- Düyü qara çayla birlikdə döyülür və uşaqlıq qanaxması olan qadınlara yedirdilir (gündə bir xörək qaşığı).

- Qanlı ishalda düyü həlimi içirlər.
- Düyü qəndlə birlikdə döyülür və ağızgəlmədə ağıza səpilir.
- Başağrılarında düyü boyaqotu kökü ilə döyülüb əmgəyə bağlanır.

Qarğıdalı

- Qarğıdalı telinin (saçağının) dəmləməsi böyrək xəstəliklərinin sağalmasına kömək edir.
- Qarğıdalı telməyi itburnu ilə dəmlənib içiləndə qaraciyər xəstə–liklərini yüngülləşdirir.

Zəyərək

- Zəyərəyin unu südlə xəmir edilir və ondan yetişmiş yaraya təpitmə qoyulur.
- Zəyərək toxumu quyruq yağı və ya sümük iliyi ilə birlikdə döyülüb kor çibana qoyulur.

Paxla

- Paxla unu bal və sirkə ilə birlikdə xəmir edilir, döşgəlmədə döşə bağlanır.
- Dişağrısını kəsmək üçün dişə paxla qoyulur.
- Paxla süddə qaynadılır, irinləşmiş dişin dibinə qoyulur.
- Paxla ununun xəmiri çibana dərmandır.

Günəbaxan

- Günəbaxan ləçəklərini çay kimi dəmləyib soyuqdəyməsi olan xəstəyə verirlər.

Mərcimək

- Mərcimək dəmləməsi - qanqrenanı, qaynadılmışı - qızılcanı yüngülləşdirir.
- Mərciməyin suyunu qızılcalı xəstəyə içirdirlər.
- Mərciməyi bişirib yemək suçiçəyini sağaltmağa kömək edir.

- Mərciməyi qaynadıb suyunu içmək sarılıq xəstəliyinin müali–cəsinə xeyirlidir.

C. Bəzək Bitki Mənşəli Reseptlər

Söyüd

- Söyüd yarpağının qaynartısı hərarəti salır. Bu məqsədlə söyüd ləti və ya söyüd arağı da içmək olar.
- Söyüd qabığını dəmləyib içirlər ki, öskürəyi kəssin.
- Ağrıyan dişə söyüd qabığı qoyurlar.
- Söyüdün körpə budaqlarını (cüyürü) yarpızla birlikdə qaynadıb ishallı xəstəni vanna edirlər.
- Söyüdün yağı dəmirova dərmandır.
- Söyüd çiçəyinin dəmləməsi ürəkağrısını azaldır.

Qarağac

- Qarağacın özəyinin üst qatı döyülüb yaralara bağlanır.
- Qarağac zoğunun (köklərinin) üst qatını qaşıyıb arpa unu, əmə–köməci, paltar sabunu ilə qarışdırıb irinli yaralara bağlayırlar.
- Qarağacın qabığı qaynadılıb dolamaya, yamana döşənir.
- Qarağac xəmiri çibana, irinli yaralara bağlanır.

Qələmə

- Qələmə odununu yandırıb külünü bişməcəyə səpirlər.
- Yarpaqlarının dəmləməsi dişağrısında qarqara edilir.
- Bu həm də qanı duruldur, başgicəllənməsini aradan götürür.

Qızılgül

- Türkəçarədə qızılgüllə bağlı xeyli resept vardır.
- Qızılgülün ləçəkləri şəkərlə döyülür. 40 gün günəşin altında qaldıqdan sonra içinə ədviyyat vurulub gülqənd alınır.
- Gülqənd balla qarışdırılıb qoz böyüklüyünə salınır, kişi sonsuzluğunda və zəifliyində uzun müddət yeyilir.

- Gülqəndi balla qarışdırıb başgicəllənməsində, qanazlığında da yeyirlər.
- Qızılgülün kodusu (qozası) kəklikotu ilə birlikdə dəmlənir, ishallı yarımstəkan içirilir.
- Qızılgül ləçəklərinin suyunu (gülabı) içmək ürəkbulanmalarda, ürək xəstəliklərində, qusmada faydalıdır.
- Döşgəlməsində qızılgül kolunun dibindən torpaq götürüb palçıq edirlər və döşə çəkirlər.
- Ağızgəlmədə çoxillik gülqənd çeynənir.
- Gülab mis taba tökülür, içərisinə qovrulmuş arpa isti-isti əlavə edilir, nimsərli xəstə və ya uzunmüddətli başağrısı olan xəstə bunun buxarına verilir. Buxar qurtardıqdan sonra arpa başa döşənir, mis qab isə üstdən başa keçirilir.
- Babasil xəstəliyində isti kərpicin üzərinə gülab səpilir və xəstə oturacağını buxara verir.
- Qızılgül ləçəyi, istiot, qulançar, ədviyyat, qəndlə döyülüb bankaya yığılır, 40 gün günün altında saxlanılır, sonra iki-üç il qaranlıq yerdə qoyulur. Bundan yel xəstəliyinin müalicəsində istifadə olunur.

Həmişəbahar

- Həmişəbaharın ləçəklərinin bişirilmişi qəbizliyi götürür.
- Həmişəbahar və digər gül ləçəklərindən hazırlanmış "gül yastı–ğı"nı başın altına qoyurlar ki, başağrısı kəssin.

Xoruzgülü

- Qızdırmanı salmaq üçün xoruzgülünü dəmləyib içirlər.
- Bu, boğazağrısında da faydalıdır.
- Xoruzgülündən yetişmiş yaralara təpitmə qoyurlar.

Gülxətmi

- Gülxətmi çiçəklərinin dəmləməsi qəbizliyə xeyirlidir.

- Gülxətmi qaynartısını xəmir edib göz ağrısında gözə bağla–yırlar.
- Gülxətmi çiçəklərinin suyu gözə salınır.
- Gülxətmi ləçəklərindən bəlğəmgətirici kimi istifadə olunur.
- Gülxətmini səhləblə birlikdə dəmləyib içəndə öskürəyi kəsir.
- Gülxətmi kökü qaşınıb inək südündə qaynadılır, alınmış məhlul qulaqdibi xəstəliyində qulağın dibinə çəkilir.
- Həmin məlhəm soyuqdəymədə sinəyə çəkilir, itdirisəyini sağaldır.
- Gülxətmi çiçəklərinin qurudulmuşu başağrısında buruna çəkilir.
- Gülxətmi arağı sancını kəsməyə kömək edir.

Gülsabah

- Gülsabah toxumunun suyu qəbizliyi aradan götürür.

Ətirşah

- Ürəkdöyünmədə ətirşahı dəmləyib içirlər.
- Ağızgəlmədə ətirşah suyu ilə xəstənin ağzını silirlər.

Limon

- Limon suyu qusmanın qabağını alır.
- Qızdırılmış nabatın üstünə limon suyu və gülab töküb içirlər sancını kəsir.
- Limon qan təzyiqini aşağı salır.
- Üzdəki ləkələri götürmək üçün limonu üzə sürtürlər.
- Soyuq havada limon çayı xeyirlidir.

D. Texniki Bitki Mənşəli Reseptlər

Pambıq

- Qulaqağrısını kəsmək üçün pambığın üzərinə ana südü damızdırıb, qulağa qoyurlar.
- Gözağrısında, köhnə pambıq, yağda qaynadılıb, ilıq şəkildə gözə döşənir.

- Köhnə, kirli pambıq, quyruq yağında döyülüb, kor çibana qoyulur.
- Arı sancan yerə duzlu suda islanmış pambıq döşənir.
- Qızdırmada, pambıq eşilib, qola bağlanır.

Tütün

- Qulaqdibində tütün çeynənib, qulağın dibinə qoyulur.
- Tütünün mövüzlə ilə döyülüb, sevdayelinə dərman düzəldirlər.
- Qulaqağrısını kəsmək üçün tütünün tüstüsü qulağa verilir.
- Tütün külü, xına ilə qarışdırılıb, sarıyaraya çəkilir.

Gərçən

- Gərçən yağı, suçiçəyinə sürtülür, qəbizlikdə içilir.

Yonca

- Sidik daşlarını tökmək üçün yonca dəmlənib, çay kimi içilir.

Şənbəllə

- Dəmlənib içiləndə qan təzyiqini aşağı salır.

Q. Yabani Bitki Mənşəli Reseptlər

Yemişan

- Yemişan çiçəklərinin dəmləməsi ürək xəstəliklərini yüngül–ləşdirmək, şəkəri, qan təzyiqini aşağı salmaq üçün faydalıdır.
- Yemişan yarpaqlarını yeyəndə başağrısı azalır.

Çölarmudu.

- Çölarmudunun qurusu, əl dəyirmanında çəkilir, üstünə döyül–müş nabat və kəllə qənd tökülür, xəmir edilir, sonra həb şəklinə salınıb hər səhər acqarına (bir həb hesabı ilə) qəbul edilir.
- Çölarmudunun budaqları dəmlənib içiləndə ishalı kəsilir.
- Çölarmudunu yemək, qusmanı kəsir.

- Soyulub qaynadılmış və ya qurudulub döyülmüş çölarmudu sancını kəsir.

Qızıl söyüd

- Qızıl yeli olan xəstələr qızıl söyüdün suyuna salınır.

Əzgil

- Qanlı ishalda dəmləməsini içirlər.

Palıd

- Qabığı, keçi tükü ilə birlikdə yandırılıb, burun qanaxmalarında buruna çəkilir.

Kərməşov

- Kərməşov yağı dəmirova çəkilir.

Ardıc

- Qaynadılır, buxarı, yel xəstəliyi olan adamlara verilir.
- Budaqları, meyvəsi ilə birlikdə qaynadılır. Gotur tutmuş xəstə onun suyunda çimizdirilir.

Zirinc

- Qaynadılmış zirincdən qankəsici dərman kimi istifadə edilir.
- Zirinc mürəbbəsi, ürəkağrısına xeyirlidir.
- Zirinc qaynartısından qan təzyiqini aşağı salmaq üçün, həmç–inin qan təzyiqindən əmələ gələn başağrısını, başgicəllənməsini götürmək üçün istifadə edirlər.
- Zirinc külünün çayı, qaşınmanı kəsir.
- Zirinc kötüklərini dəmləyib, qadın xəstəliyi olanları vanna edirlər.

Dağdağan

- Dağdağan meyvəsinin halvası, gecə sidik saxlamayan uşağa yedizdirmək fayda verir.
- Dağdağan tərəsi, ishalı kəsir.

İtburnu

- İtburnu meyvəsini dəmləyib içəndə qan təzyiqinin aşağı salmaq mümkün olur.
- Bu, qaraciyər şişlərini, öd daşı xəstəliyini yüngülləşdirir.
- İtburnu meyvəsi döyülüb balla qatılır və sarılığı olan xəstəyə içirdilir.
- İtburnu meyvəsi soxulcanla qarışdırılıb döyülür və quduzluğu olan xəstəyə yedizdirilir.
- İtburnu çiçəyini yemək ürək döyünməsini kəsir. 2 kq itburnunu üyüdüb dəmləyib, bir gün sonra onun üstünə iki-üç limon əzib sıxıb, 1 kq balla qarışdırırlar. Alınmış məhlulu qara parçaya büküb, bir gün saxlayırlar. Bundan, acqarına bir stəkan içmək qaraciyərə xeyirlidir.

Gəvən

- Gəvən yağı dişağrısını kəsir.
- Gəvən çiçəyinin və ya meyvəsinin dəmləməsi ürəkağrısını kəsir.
- Gəvən qaynartısında xəmir edib, yamana təpitmə qoyurlar.

Böyürtkən

- Böyürtkənin yarpağı çibanı deşir. Böyürtkən yarpağı, bənövşə, sabun, süd, şıppır və yarpızla birlikdə qaynadılıb dolamaya bağlanır.

E. Ot Mənşəli Reseptlər

Üzərlik

- Üzərliyi yandırıb, tüstüsünü başağrısı olan xəstəyə verirlər.
- Üzərliyin külü, ağrıyan başa sürtülür.
- Qovrulmuş və üyüdülmüş üzərliyin darı boydası, qənd ovuntusuna qatılıb, sancını kəsmək üçün xəstəyə içizdirilir.

- Üzərlik, yumurtanın ağı və zəy ilə birlikdə qarışdırılıb, ağrıyan gözə qoyulur.
- Üzərliyin toxumu dişağrısını kəsir.
- Üzərlik qaynadıb, suyunda xəmir edirlər və hova təpitmə qoyurlar.
- Qatı üzərlik sirkəsi, soxulcan qurdunun qurusu ilə birlikdə xəstənin yuxa yerinə çəkiləndə onun sidik yolu sağalır.

Yarpız

- Qaynadılmış yarpızın buxarı döşağrısını kəsir.
- Zahılıq dövründə hovlayan qadınlar yarpız buxarına verilir.
- Yarpız dəmləməsi ishalı kəsir.
- Ağızgəlməsində yarpız, bal, gicitikan və şıppırla birlikdə qaynadılır, gün altında qurudulduqdan sonra ağıza sürtülür.
- Bu məqsədlə yarpız külündən də istifadə olunur.
- Hərarəti olan xəstələr yarpız suyuna salınır.
- Yarpızı dəmləyib qarqara edirlər ki, damaq yaraları sağalsın.
- Çıxıqdan əmələ gəlmiş şişləri yatırmaq üçün yarpızı qaynadıb oynağa döşəyirlər.

Baldırğan

- Baldırğanın dəmləməsi öskürəyi kəsir, sinəni yumşaldır, böyrəkdaşı xəstəliklərini yüngülləşdirir, ürək ağrılarını kəsir.
- Baldırğan arağı, sətəlcəmdə, boğaz ağrısı və başağrısında bəlğəmgətirici və köpyatırıcı dərman yerində işlənir.

Əvəlik

- Soyuqdəymənin, ishalın dərmanıdır.

Qarağat (dəvədabanı)

- Yarpaqları qat-qat yığılır, qatlar arasına bal çəkilib, on gün qaranlıqda saxlanılır. Bundan bir xörək qaşığı miqdarında, gündə üç dəfə, mədə yarası olan xəstəyə verilir.
- Suyu, yel ağrılarını kəsir.
- Yarpaqlarının dəmləməsi, astma və babasil xəstəliklərində xeyirlidir.

- Yarpaqlarının suyu, uşaq salır.
- Yarpaqları döyülüb, qulaqdibi xəstəliyində şişlərin üstünə bağlanır, irinli yaralara döşənir.
- Uşaqlıq yolu hovlayanda qadını qarağat buxarına verirlər.
- İlan vuran yer çərtilir, döyülmüş qarağat yarpağı neftlə qarışdırılıb, çərtilmiş yerə bağlanır.

Qılbığan

- Qaynadılıb, sonra qovrulmuş qılbığan yeyilir.
- Mədə yarasını yüngülləşdirir.

Gicitkən

- Yel xəstəliyində ağrıyan yerlər gicitkənlə döyülür.
- Qan təzyiqini salmaq üçün balaca stəkanla gündə bir neçə dəfə gicitkən arağı içilir.
- Aybaşı qanaxmalarında, vərəm və damar partlamalarında, mədə-bağırsaq qanaxmalarında gicitkən arağı içmək faydalıdır.
- Gicitkəni qaynadıb, qaşınmanın qarşısını alırlar.
- Tükün tökülməsinin qarşısını almaq üçün gicitkən qaynartısını başa sürtürlər.
- Hovlarda gicitkən, dəvədabanı, bağayarpağı, əməköməci birlikdə qaynadılır və xəstə bunun buxarına verilir.

Qarayonca

- Qanı kəsmək üçün qarayoncanı döyüb, qan verən yaraya bağlayırlar.
- Qarayoncanın suyu burun qanaxmasında buruna tökülür.
- Unu yanıqlara səpilir.
- Dəmləməsi sidikdaşı xəstəliyini yüngülləşdirir.

Bağayarpağı

- Qanı kəsmək üçün əzib yaraya bağlayırlar.
- Döyülmüşü ilan vuran yerə, irinli yaralara bağlanır.
- Qurudulmuşu un kimi edilib, burun qanaxmasında buruna çəkilir.
- Astmada suyu içilir.

- Eyni zamanda bəlğəmgətirici, öskürəkkəsici kimi istifadə edilir.
- Dəmləməsi həm də mədə yaralarında, qəbizlikdə faydalıdır.
- Toxumlarının dəmləməsi ishalı kəsmək üçün xeyirlidir.

Göytikan

- Külünün və kökünün dəmləməsi ishalı kəsmək üçün xeyirlidir.

Babasilotu

- Babasil xəstəliyində qaynartısı, qəbizlikdə dəmləməsi faydalıdır
- . Otu əzilib babasildə düz bağırsağa ötürülür.
- Babasilotu pörtlədilib döyülür, bala qatılıb, 7–8 gün saxlandıqdan sonra gündə üç dəfə çeynəmədən udulur.

Xaşxaş

- Döyülüb yağa qatılmış xaşxaşı, yuxusu pozulan uşağa yaladırlar.
- Qaynartısı sancını kəsmək üçün xeyirlidir.

Ayıdöşəyi

- Dəmləməsi böyrəkdaşı xəstəliyində faydalıdır.

Şıppır

- Sətəlcəmdə şıppır, bağayarpağı, qaraxod, yarpız birlikdə qaynadılır və sinəyə təpitmə qoyulur.
- Bu, dolamanı sağaltmağa da kömək edir.

Buğatikanı

- Diş ağrılarını kəsmək üçün dişə qoyulur.
- Boğazgəlmədə qaynadılıb boğaza döşənir.
- Sətəlcəmə faydalıdır.
- Kişilik qabiliyyətini artırır.
- Vəz şişində kökünü döyüb vəzə bağlayırlar.

Çilədağ

- Çilədağ, quyruq yağı, darçın və mixəklə birlikdə döyülüb həb şəklinə salınır, qadın sonsuzluğunda uşaqlığa ötürülür.
- Qarayonca ilə döyüb, itdirsəyinə bağlayırlar.

- Bu məlhəm köhnə çıxıqlardan qanı sormaq üçün də faydalıdır.

Quluncan

- Dəmləməsi yel xəstəliyində və ürəkağrılarında xeyirlidir.
- Ağızdan gələn iyi götürür, vərəmli xəstəyə kömək edir.

Şahdərən

- Xəstə, şahdərən suyu ilə imalə edilir ki, qəbizliyi azalsın.
- Şahdərən, xına ilə birlikdə qaynadılıb dəmrova qoyulur.
- Buxarı sevdayelini sağaltmağa kömək edir.
- Arağı qaşınmanı götürür, istiliyi salır.

Kəklikotu

- Döyülmüşünü yumurtaya səpib, ishalı kəsmək üçün yeyirlər.
- Başağrılarında başı kəklikotu buxarına verirlər. İshalda, mədə-bağırsaq xəstəliklərində, soyuqdəymədə dəmləyib içirlər.
- Kəklikotu arağı qanazlığında, ürək xəstəliklərində, öskürəkdə kara gəlir.

Səhləb

- Başağrısında qaynadılıb suyu içilir.
- Dəmləməsi sancıda, öskürəkdə, qaraciyər, öd yolları iltihabında, bronxit və soyuqdəymələrdə xeyir verir.
- Cinsi zəiflikdə soğanağı yeyilir.

Qantəpər

- Boğazağrısında, sinətutulmasında, soyuqdəymədə dəmlənib içilir.
- Xarab qanı təmizləyir, bəlğəm gətirir.
- Başağrılarında buxarı xeyirli olur.

Çobanyastığı

- Dəmləməsi ağız xəstəliklərində, boğazağrılarında, sancıda, ürək ağrılarında, öd xəstəliklərində fayda verir.
- Arağı ürək ağrılarını azaldır.

- Çobanyastığının suyu, adi su və döş südü ilə qarışdırılıb, qulaq ağrılarında qulağa salınır.
- Suyu ilə baş yuyulduqda tükün tökülməsinin qarşısını alır.

Acıotu

- İsti suya salınıb, arı sancan yerə döşənir.
- Döşgəlməsində pörtlədilib döşə bağlanır.

Duzotu

- Suyu dəmirov və qoturun sağalmasına kömək edir.
- Bir-iki damcısını içməklə qəbizliyin qabağını almaq olur.

Yamanotu

- Pörtlədilmişi yamana döşənir.

Lilpar

- Qaynadıb, yamana döşəyirlər.
- Dəmləməsi bronxiti, soyuqdəyməni yüngülləşdirir.
- Qaynartısı sarılığın qarşısını almağa kömək edir.
- Hovlamalarda bulaqotu, qaraxod, eşşəkyoncası ilə birlikdə pörtlədilir, suyu ilə vanna edilir.

Qazayağı

- Burun qanaxmalarında əzilir, suyu buruna salınır.

Pərpiyan

- İstilikvurmada qaynadılıb, sarımsaqlı qatıqla yeyilir.
- Bu məqsədlə suyunda vanna edilir.

Əmənköməci

- Burun qanaxmalarında suyu, buruna salınır.
- Düymələri əzilib, baş ağrılarında boyunun ardına sürtülür.
- Bağırsaq yaralarına suyundan 0,5 l içilir.
- Gövdəsinin dəmləməsi səsi açır, sancını kəsir.
- Xayalardakı yaralara, sidik ifrazatına xeyirlidir.
- Kəskin öskürəklərdə əməköməci yemək faydalıdır.

- Suyu sinəni yumşaldır.
- Qaynadılıb süzülür, ağrıyan, şişən yerə döşənir.

Quşüzümü

- Dişağrısında dişə qoyulur.
- Tüstüsünü dişə vermək də xeyirlidir.

Solmazçiçəyi

- Böyrək daşlarını salmaq üçün dəmlənib içilir.
- Dəmləməsi sancıları kəsir, təzyiqi aşağı salır.

Yeradamı

- Kökü balla qarışdırılıb, ağrıyan yerə çəkilir.
- Döyülüb bir qaşıq unla xəmir edilir, qaraciyər şişməsində təpitmə qoyulur.

Qumsabunu

- Qaşınmada suyu ilə yuyunmaq faydalıdır.

Papaqotu

- Toxumlarının dəmləməsindən sidikqovucu kimi istifadə edirlər.

Üskükotu

- Meyvəsini qızmar dəmirin üstünə tökürlər, ağrıyan qulağı onun buğuna verirlər.

İlanüzümü

- Burun qanaxmalarında yarpağı əzilir, suyu buruna salınır.

Çöl nanəsi

- Yarpaqları əzilib dalaq şişlərinə bağlanır.
- Əzilib suyu çıxarılır, burun qanaxmasında buruna salınır.
- Dəmləməsi quru sancını kəsir, ürək xəstəliklərində içilir.

Living

- Çiy yeyiləndə qəbizliyin, bişirilmiş halda yeyiləndə ishalın qabağını alır.

Yovşan

- Dəmləməsi ishalı kəsir, ağız xəstəliklərini sağaldır.
- Sancılananda suyunu içirlər və ya tüstüsünü qəbul edirlər.
- At yovşanının dəmləməsi öskürəyi kəsir.
- Suyu, qaşınmanın qabağını alır.
- Arağı, başağrılarını götürür.

Qarnıyarıq

- Kökünün əmici telləri un halına salınıb, burun qanaxmasını kəsmək üçün buruna çəkilir.
- Meyvəsi döyülüb, nəm-nəm, qızıl yelə bağlanır.
- Meyvəsinin döyülmüşü qəbizliyin qabağını alır.
- Kötüyü döyülüb süddə məlhəm halına salınır və bədənə çəkilir ki, yel xəstəliyinin qabağını alsın.

Pürü

- Dəmləməsi zobun müalicəsinə kömək edir.

Tikəotu

- Yandırılmışı bir stəkan su ilə içilir - boğazdan tikəni keçirir.

Uşqun

- Dəmləməsi mədə ağrılarını kəsir.
- Qabığı qurudulur, döyülüb ağızgəlməsində ağıza səpilir.

Şirinbiyan

- Ölüşkəyənədək günün altında saxlanıb, sonra yel xəstəliyi olan xəstənin bədəninə döşənir.
- Şəkər və ürək xəstəliklərində, dəmləməsi xeyir verir.

Boyaqotu

- Kökü qurudulub döyülür, balla qarışdırılıb, sınıqlarda yaxı kimi istifadə edilir.
- Böyrək xəstəliklərində, köklərinin qaynartısını içirlər. Qəbizlikdə, kökünün və meyvəsinin dəmləməsi xeyirlidir.

- Meyvəsi əzilir, sidiyə çətin gedən xəstənin yuxa yerinə döşənir.

Fısfıs

- Burun qanaxmasını kəsmək üçün tozu, buruna çəkilir.
- Dəmirova qarşı da xeyirlidir.

Pişikotu

- Suyu sarılığa faydalıdır.

Atyoncası

- Döyülüb çibana döşənir. Tüstüsü, öskürəyi kəsir.

Qırxbuğum

- Babasil xəstəliyində çayı içilir.
- Dəmləməsi, öd daşlarının müalicəsinə fayda verir.
- 30 qram qırxbuğum, 300 qramlıq çaynikdə, 20 dəqiqə dəm alır və ondan gündə üç dəfə bir stəkan içirlər.

Boymadərən

- Arağı, qızılgül kötüyü, kəklikotu, yemlik, çobanyastığı, nanə ilə birlikdə mədə ağrısını, sancını kəsir.
- Boymadərən arağı qaraciyər, bağırsaq xəstəliklərində, ürək və başağrısında faydalıdır.

Südlübiyan

- Döş gələndə döşə sürtülür.

Qatırquyruğu

- Dəmləməsi, böyrək daşlarını salır.

Şüvərən

- İstiliyi salmaq üçün dəmləməsi faydalıdır.
- Toxumu suda isladılır və qəbizliyi olan xəstələrə verilir.

Çoğan

- Otu, spirtə qoyulub, 20 gün qaranlıqda saxlanılır və vərəmli xəstə–lərə verilir.

Bənövşə

- Gülünün dəmləməsi öskürəkdə, sətəlcəmdə, göyöskürəkdə fayda verir.

Zufa

- Arağı, sancı kəsir.
- Toxumunun dəmləməsi, gözün görmə qabiliyyətini artırmaq üçün, gözə salınır.

Maralbaldırğanı

- Damar tutulmalarında (tromboflebitlərdə) kökü, yarpağı, çiçəyi dəmlənib içilir.

Yemlik

- Arağı qəbizliyin qabağını alır.

Mərcangilə

- Bir çay qaşığı mərcangilə, bir stəkan suya qatılıb dəmlənir ki, böyrək daşını salsın.
- Döyülmüşü, yağa qatılır, qanaxmalarda xəstəyə verilir.

Batbat

- Kərə yağı batbatla birgə qızmış ərsinin üstünə qoyulur və məzmə–zəkli xəstə bunun tüstüsü ilə nəfəs alır.

Çırtaquş

- Keşnişlə birlikdə əzilib zoba bağlanır.
- Arağı istiliyi aşağı salır.
- Gözə xeyri var. Kökünün külü, qurudla birlikdə sarıyaraya səpilir.
- Başağrısını kəsmək üçün kökü, suya salınıb soyuqda saxlanır, sonra səhərlər acqarına içilir.

Yağlıcaotu

- Yağlıcanın buxarını verdikdə uşağyoldaşı düşür.

Ayıçaşırı

- Kəpənək qurdunu salır.

- Adi çaşır bütün növ qurdları tökür.
- Çiçəklərindən çəkilmiş araq, iştah artırır.
- Köklərini balla qarışdırıb yedikdə yel ağrılarını, xüsusən beldəki ağrıları götürür.

HEYVAN MƏNŞƏLİ RESEPTLƏR

Heyvan mənşəli reseptlər iki qrupa ayrilir:

A. Ev Heyvanı Mənşəli Reseptlər

At

- Qızılca içəri vuranda xəstə, yenicə doğulmuş at balasının (qulunun) pərdəsinə bükülür.
- At südü göyöskürəkdə xeyirlidir.
- Deyirlər, at sidiyini içmək, uşaqlıq kistasını salır.
- Çox qanlı aybaşlarında, türkəçarəçi, at təsini tənzifə büküb, uşaqlıq yollarına ötürür.
- At və ya eşşək sidiyi zəhəri kəsərdən salır.
- Çiy at südü istiliyi salır.
- Burun qanaxmasında at təsinin tüstüsü buruna çəkilir.
- Deyirlər, at sidiyini iyləmək başağrısını azaldır, ürəkkeçmənin qarşısını alır.

Eşşək

- Eşşək südünü ağciyər vərəmində, göyöskürəkdə içmək xeyir–lidir.
- Məzməzəkli xəstə, eşşək təsinin tüstüsünə verilir.
- Erkək ulağın peyini suda qaynadılıb, arpa unu ilə xəmir edilir və simlənmiş yaraya bağlanır.
- Eşşək südü “yumru” (vəz xəstəliyi) xəstəliyində, eşşək südü, eşşək sidiyi ilə birlikdə qızılçada xeyirlidir.
- Sevdayeli çərtilir, üstünə eşşək qanı ilə səndəl sürtülür.
- Sinəgirlikdə, təngənəfəslikdə xəstəyə eşşək südü içirdirlər, sonra da eşşək südü içdiyini xəstəyə deməklə onu diksindirirlər.

Qatır

- Qatır qanı, göyöskürəyin, yamanın dərmanıdır, deyirlər.

İnək

- Təzə inək südünü qaynadıb içmək göyöskürəkdə, adi öskürəkdə, sinə tutulmasında, astmada faydalıdır.
- Qara inək yağı dağ edilib balla qarışdırılır, qan təzyiqi olan xəstə hündür bir yerdə uzanıb, aşağıda qoyulmuş bu məlhəmi qamışla sümürür.
- Limfa vəzləri şişəndə, üstünə mal peyini qoyub, bağlayırlar.
- Köpən inəyin peyini, hovlamış yaranın sağalmasına kömək edir.
- Uşaq saxlamayan qadının ayağına, isti-isti, mal qursağı və ya maya çəkilir.
- İnək xaması qurutla qarışdırılıb, sarıyaraya bağlanır.
- Gözün içinə "çırtıq" çıxanda yağı dağ edib ilıq şəkildə gözə damızdırırlar.
- Dırnaq qoturunda, dana sidiyi ilə vanna etmək xeyirlidir, deyirlər.
- Dana peyini suda qaynadılıb dolamaya bağlanır.
- Yeddi stəkan inək sidiyi, bir stəkan qalanadək qaynadılır, içinə qurum, sürayi qabığının unu qatılıb keçəl başa çəkilir.
- Mal qursağı yamana dərmandır.
- İnək xaması, zəy, çırtaquş kökü ilə qarışdırılıb bədənin qaşınan yerlərinə çəkilir.
- Mal ödünü xına ilə qarışdırıb, ondan yel xəstəliyinə qarşı istifadə edirlər.
- Mal ödü qurudulub yeməyə qatılır ki, həzm yüngülləşsin.
- Mal ödü, irinli yaralara sürtülür.
- Dalaq şişlərində, ara həkimi xəstəyə sarı inək sidiyi içməyi məsləhət görür.

Qoyun

- Qoyunun ağciyərləri gözə bağlanır ki, gözün qanı çəkilsin.

- Kirli yunlu olan dəri qızdırılır, qızılcası içəri vurmuş xəstə həmin yuna bükülür.
- Qara qoyun sidiyi tam qatılaşanadək qaynadılır, qilbaş (üc hissəsində qanqrena olan barmaq) onunla vanna edilir.
- Simləmiş yaraya isti dəri çəkilir.
- Qoyun qursağı şirinyaranı sağaldır.
- Qoyunun ödü diz-oynaq ağrılarını azaldır.
- Heyvan gözü əzilib çibana bağlanır.
- Yaşıl ota düşüb köpən qoyunun peyini yaraya bağlanır ki, yaranın qanı kəssin.
- Qoyun gözü göz-göz olan yaraya bağlanır.
- Sarılığı olan xəstə, isti-isti, qoyun dərisinə salınır.
- Yeni doğulmuş çağanın göbəyindən qan gələndə onun göbəyinə qoyun yunu bağlanır.
- Qoyunun aşıq sümüyü yandırılıb, qadın xəstəliklərində uşaqlıq yoluna ötürülür.
- Uşaq salmaq üçün qoyun qurutunu duzlu pendirə qatıb, uşaqlıq yoluna ötürürlər.
- Qoyun qığını qovurub, xəstə ayağı onun içinə salırlar.
- Qoyun sidiyi qoturluğun sağalmasına kömək edir.
- Qoyun qatığından xəmir hazırlayıb, qulaqdibi azarını sağaldırlar.
- Qızdırması olan xəstə, qoyun sidiyi ilə çimizdirilir.
- Qoyunun qoltuq nahiyəsinin kirli yunu, dişdibi ağrılarında və yaralarında dişə qoyulur.
- Qara qoyunun kirli yunu yel xəstəliyində oynaqlara bağlanır.
- Kor çibanı, iylənmiş quyruqla sağaldırlar.

Keçi

- Qəzili (keçinin tükünü) yandırıb, burun qanaxmasında buruna çəkirlər.
- Keçi dərisi, isti-isti, ilan vuran yerə bağlanır.

- Qəbizlikdə, sarı keçi südü xeyirlidir, deyirlər.
- Başağrısında, başa təzə kəsilmiş çəpiş dərisi çəkilir.
- Qəzil qaynadılıb, sidiyə çətin gedən xəstənin yuxa yerinə döşənir.
- Qəbizlikdə, çiy keçi südü xeyirlidir.
- Qəzillə üzərlik birlikdə yandırılıb, çiçəkli xəstə onun tüstüsünə verilir.

Öküz

- Əlin dərisi quruyub çatlayanda və ya qaşınan əl, öküz sidiyi ilə yuyulur.
- Bir kiloqram öküz yağı, bir kiloqram balla qarışdırılıb içilir ki, kişilik hissiyyatı möhkəmlənsin.

Camış

- Qulaqağrılarında camış ödü faydalıdır. Bu məqsədlə camış qulağının kirindən də istifadə olunur.
- Uşaqlığın ağzı bağlı olanda (bunu aybaşı qanının olmaması ilə təyin edirlər), qaynadılmış camış peyini, qaynadılmış qara neftlə qarışdırılır, üzərinə bir yumurta sarısı əlavə edilir və ilıq şəkildə uşaqlıq yoluna ötürülür.
- İsti camış peyini, qoyun beyni, gicitkən, bağayarpağı, əmə–köməci, yarpızla birlikdə qaynadılır, yel xəstəliyində xəstə bununla vanna edilir.
- Camış sidiyi dəri xəstəliklərinin sağalmasına kömək edir.
- Qadın hovlayanda, camış peyini kəklikotu ilə birlikdə qayna–dılıb, qadının qarnına döşənir.
- Hərarəti olan xəstələrin ayağı altına camış ödü çəkilir.
- Zahı sancısında, camış südü faydalıdır.
- Camış qatığının suyu və duzsuz şor, qan təzyiqini salır.
- Mal piyi bal, hel bərabər hissələrdə götürülüb qarışdırılır və həb şəklində içilir ki, böyrək daşını aradan götürsün.

- Camış peyini, qarağac kötüyü ilə birlikdə qaynadılıb, yetişmiş yaraya bağlanır.

Pişik

- Pişik tükü, keçi qəzili, üzərlik birlikdə yandırılıb, tüstüsü, hava–lı xəstələrə verilir.
- Ziyilə pişik ağzının suyu vurulur.

İt

- Gözü açılmamış küçük, diri-diri yarılır, içalatı yaman yaraya bağlanır.
- İtdirsəyini, itqarısı (nəcisini) ilə murdarlayırlar.
- Quduz itin tükünün külü, quduz it qapmış adamın yarasına bağlanır.
- İtqarısı, şişlərin qabağını alır.
- Vərəmli xəstəyə, küçük əti dərmandır, deyirlər.
- Qulaqdibi, it südü ilə kompres edilir.
- İtqarasının pörtlədilmişi, atlı-yamana bağlanır.
- Gözə ağ gələndə, qancıq südü qımızla birlikdə gözə damız–dırılır.
- İtqarısı, zəy, baş tükü, qənd, yarpız birlikdə döyülüb, uzun sürən ağız yaralarına səpilir.

B.Vəhşi Heyvan Mənşəli Reseptlər

Ayı

- Ayı yağı, ağrını götürür.
- Ayı yağı, balla qarışdırılıb, vərəmli xəstəyə verilir.
- Yel xəstəliyində xəstəni, təzə ayı dərisinə bükürlər.
- Mədə sancılarında 3–5 damcı ayı ödü içilir.
- Ayı ödü, oynaq-əzələ ağrılarını azaldır.

Canavar

- Canavarın qaraciyərini lap uşağa yedizdirəndə uşağın dili açılar.
- Döş gələndə döşü, canavar pəncəsi ilə sığallayırlar.
- Qurd yağı, quduz xəstəyə dərmandır.

Porsuq

- Vərəmli xəstəyə porsuq əti yedirdirlər.
- Porsuq əti ishalı, sancını kəsir.

Dovşan

- Dovşan əti qızdırmada, bağırsaq keçməməzliyində, öskürəkdə, boğazağrısında faydalıdır.
- Dovşanın qaraciyərini uşağa yedizdirirlər ki, uşağın dili açılsın.
- Dovşan qanı, göyöskürəkdə içilir, qulaq ağrılarında qulağa salınır.
- Dovşan tükünü yandırıb, külünü yanığa basırlar.

Tülkü

- Tülkü qursağı ilancıq-siçancıq (qurdeşənəyi) xəstəliyini sağalt–mağa kömək edir.
- Xanəzir və yeyitmə xəstəliklərinin müalicəsində də tülkü qur–sağından istifadə edirlər.
- Tülkünün ürəyini, sarılıq tutmuş adama yedizdirmək faydalıdır, deyirlər.
- Qılbaş barmağa tülkü qursağı çəkirlər.

İlan

- Əl tez-tez tərləyəndə əli, təzəcə öldürülmüş ilanın belinə çəkirlər.
- Ziyili olan adam, ilanköynəyini çeynəyib udur.
- İlan ətini, ilan çalan adamın yarasına qoyub bağlayırlar.
- Vərəm, yel xəstəliklərində ilan əti yemək xeyirlidir, deyirlər.
- İlan yağı, əzələ-oynaq ağrılarını kəsir.

- İlanköynəyi başa bağlanır ki, saç uzansın.
- Dalbadal çiban çıxaran adam 2–3 sm ilanköynəyi udur.
- Tükün tökülməməsinin qarşısını almaq üçün saçı, ilanköynəyi qaynadılmış su ilə yuyurlar.
- İlanın orta hissəsi kəsilib, günün qabağına qoyulur, çıxan yağ keçəl başa yaxılır.

Qurbağa

- Qurbağanın qarnı deşilir, qılbaş barmaq qurbağanın qarnına salınır.
- Döş gələndə diri qurbağa döşə bağlanır.
- Diri qurbağanı qarayaraya qoyub bağlayırlar, qurbağa ölənə qədər belə saxlanılır.
- Zoba, diri qurbağa bağlayırlar.
- Qurbağa camağı balla qarışdırılıb yeyiləndə lentvari qurdu tökür.
- Ziyilə qurbağa sürtülür.
- Sonsuzluqda qurbağa əti faydalıdır, deyirlər.
- Boğazda pisyara əmələ gələndə diri qurbağanın başı ağıza salınır, xəstə onun nəfəsi ilə nəfəs alır.

Tısbağa

- Tısbağanı şaqqalayıb pisyaraya bağlayırlar.
- Babasildə tısbağanın əti və yumurtası xeyirlidir.
- Tısbağa yumurtası sancını kəsir.
- Tısbağa əti vərəmli xəstəyə xeyirdir.
- Tısbağa əti sevdayelinin qabağını alır.
- Tısbağa yumurtasını sonsuz qadının uşaqlıq yoluna ötürürlər.
- Tısbağanı yarıb qarayaraya bağlayırlar.
- Tısbağa, qanı, qaşınmanın dərmanıdır.
- Fəthyelində tısbağa yumurtası içirlər.

Kirpi

- Kirpi əti vərəmə, babasilə, baş-qulaq, göz, qarın ağrılarına xeyirlidir.

- Kirpi dərisi, isti-isti yamanyaraya, qarayaraya, ağrıyan başa çəkilir.
- Bağırsaq və yel xəstəliklərində kirpi ətini yemək faydalıdır.
- Kirpi əti noxudla birlikdə sonsuz qadına yedizdirilir.
- "Yumru" xəstəliyi olan adam, kirpinin qarnından çıxan yumurtaları udsa, xeyir tapar.

Qızılala balıq

- Beş gün ərzində, gündə üç dəfə, çiy-çiy, qanqrenaya bağlanır.
- Ağır sancılarda bu balığı udurlar.

QUŞ MƏNŞƏLİ RESEPTLƏR

Bu qurupa daxil olan reseptlər göz növbəsində iki yerə ayrilir.

A. Ev Quş Mənşəli Reseptlər

Toyuq

- Toyuğun ağciyəri qanlı-qanlı gözə bağlanır ki, gözün ağrısı kəssin.
- İlıq toyuq yumurtası, vərəmli adamlara xeyirlidir.
- Sidik saxlaya bilməyən xəstənin belinə yumurta yaxısı salınır.
- Dolama yarasına toyuq zili bağlanır.
- Toyuğun 60 ədəd pətənəyi döyülüb, su ilə qarışdırılır, vərəmli xəstələrə içirdilir.
- Hərarəti salmaq üçün bədənə yumurta ağı çəkilir.
- Başağrısında qaratoyuq qanını başa sürtürlər.
- Toyuq pətənəyinin iç pərdəsi ishalı, öyüməni kəsir.
- Xəstə toyuq əti yemiş qadın, sonsuz olar.
- Toyuq dərisi, isti-isti, irinləmiş yaraya çəkilir.
- Diş çıxarıldıqdan sonra yerindəki yaraya, bişmiş yumurta qoyulur.
- Aybaşı ağrılı olanda toyuq zili qaynadılır, isti-isti, qadın onun içində oturur.
- Toyuq piyi, ağrıyan yerə çəkildikdə xeyirlidir.
- Uşaqlarda boyun gec bərkiyəndə yumurta qabığı döyülüb uşağa verilir.
- Bu məqsədlə toyuq başı və toyuq ayaqlarının qaynartısından da istifadə edirlər.
- Göz ağrılarında yumurta deşilir, sarısı çıxarılır, yumurtanın deşiyi pambıqla tıxanır və yumurta bir müddət çalxalanır.
- Əmələ gələn məlhəm xəstə gözə çəkilir.

- Yumurta sarısı, qaynadılmış qara keçəyə bükülüb, qulağa bağ–lanır ki, qulağın ağrısı kəssin.
- Həsbə xəstəliyində başa toyuq dərisi çəkilir, sonra soxulcan qurdu, qara kişmişlə döyülüb, başa qoyulur.
- Kürəkağrısına, qara toyuq dərisi məlhəmdir.
- Kişi sonsuzluğunda qırx yumurta, on-on içilir.
- Bişmiş yumurta ishalı kəsir.
- Yumurta ağı, zəy, üzərlik birlikdə əzilib, ağrıyan gözə qoyulur.
- Toyuq pətənəyinin iç pərdəsinin döyülmüşü mədə yarası olan–lara fayda verir.

Xoruz

- Beçə öldürülüb başa qoyulur ki, meningitin qabağını alsın.
- Xoruzəng xəstəliyində çolpa soyulub, isti-isti, başa keçirilir.
- Xoruzun ağ əti əzilib ziyilə sürtülür.

Ördək

- Ördək xayalarını yeyən qadın uşağa qalar, deyirlər.

Göyərçin

- Yumurtası, qan təzyiqini salır.
- Qanı, qurudulub gözə çəkilir ki, gözə işıq gəlsin.

B.Çöl Quş Mənşəli Reseptlər

Qumru

- Qumru ətini yemək başağrısını kəsir.

Qarğa

- Qarğa beyni adamı dəli edər, deyirlər.
- Qarğa qanı göyöskürəkdə, qızılcada xeyirlidir.

Sərçə

- "Ürək babasilini" (bağırsaq içi babasili) sağaltmaq üçün 40 qara-göz sərçənin (erkək sərçənin) dərisi soyulur, kölgədə vam istidə qurudulur, un şəklinə salınır. Öküzün sidik kanalı qurudulub, un

şəklinə salınır. Bunlar 500 qram itburnu, 100 qram qara çay, 200 qram nabat, 200 qram kəllə qənd, şıppır, yarpız, əvəlik, ishalotu, quluncan, hel, sarıkök, mixək, zəncəfil, darçınla birlikdə döyülüb ələnir, bir-birinə qarışdırılıb xəmir edilir. Alınmış məlhəmdən sərçə yumurtası boyda həb düzəldilir, bu həb səhərlər acqarına, yeməkdən bir saat qabaq, gündə bir dəfə, qırx gün mütəmadi qəbul edilir.

- Ereksiya zəif olanda kişinin tənasül üzvünə sərçə beyni sürtülür.
- Diri sərçənin arxa hissəsi ağrıyan qulağa dərmandır, deyirlər.

Çölgöyərçini

- Çölgöyərçininin əti, qanı, yumurtası qızılcada, göyöskürəkdə faydalıdır.

Qəcələ (sağsağan)

- Qəcələ qarnı yarılıb, yamana bağlanır və üç gün saxlanılır.
- Əti, göy öskürəyin dərmanıdır.

HƏŞƏRAT MƏNŞƏLİ RESEPTLƏR

Arı

- Qulaq ağrıyıb şişəndə arının mumu, əldə yumşaldılıb, qulağa bağlanır.
- Göbək qanaxmasına bal dərmandır.
- Qulağa gənə girəndə balla süd qarışdırıb qulağa salınır.
- Arının sancması, oynaq ağrılarını götürür.
- Ağızgəlməsinə bal məlhəmdir.
- Qaraciyər xəstəliklərində bal yemək xeyirlidir.
- Arı mumu sarı yağla qarışdırılıb, qanqrenaya çəkilir.
- Qaşınan gözə bal çəkirlər.
- Astma xəstəliyində mumun tüstüsü ilə nəfəs almaq xeyirlidir.
- Erkək arının qurusu un kimi əzilib buruna tökülür ki, qanaxma kəsilsin.
- Bal, sirkə və inək yağı qaynadılıb, ilıq şəkildə qulağa salınır ki, qulaq açılsın.

Qırxayaq

- Qırxayağı əzib itdirsəyinə çəkirlər.

Qarışqa

- Qarışqa öz yumurtaları ilə birlikdə döyülüb başa çəkilir ki, tük gəlsin.
- Qarışqanı neftə töküb öldürür, sonra əzib, yağa qatıb, dəmirova sürtürlər.
- Qarışqanı əzib bədənə sürtürlər ki, yeli və ağrıları götürsün.

Hörümçək

- Hörümçəyin külü, burun qanaxmasını kəsir.

Bit

- Bitin qanı qoturluğa dərmandır, deyirlər.

Qaraəqrəb

- Qaraəqrəbin tüstüsü, sidiyə gedə bilməyən xəstəyə dərmandır.
- Qaraəqrəbi küncütlə birlikdə yandırıb tüstüsünü tez-tez sidiyə gedən xəstələrə də verirlər - süzənəyin qarşısını alır.
- Sidiklik tutulanda qaraəqrəb (qurusu) yağa qatılır, qasıq nahiyəsinə çəkilir.
- Qaraəqrəb, tut doşabında saxlanılır, sonra əqrəb vuran yerə bağlanır.

Ələhsanqurdu

- Ələhsanqurdu kişmişlə qarışdırılıb, quduz adamlara yedirdilir.
- Ələhsanqurdu, inək yağında saxlanır, yağ yaşıllaşanda həşə–ratlar əzilir, sonra hər mərçimək boydasına bir kəklik yumurtası boyda əlavə yağ qatılıb, sevdayelinə çəkilir.

Baramaqurdu

- Baramaqurdunun külü, göbək yırtığına bağlansa xeyir verər.

Pıspısa

- At təsi ilə birlikdə əzilib ziyilə bağlanır.

Soxulcan

- Quduzluqda itburnuna qatıb, acqarına yeyirlər. Əzilmişi, kişmişlə birlikdə qaşınan, ağrılı, suverən, irinli yara–lara bağlanır.
- Meningitlərdə qızılgülə, balla qarışdırılıb, xəstəyə yedizdirilir. Bu məqsədlə soxulcanı əzib, suyunu da içmək olar.

Şeytanmuncuğu

- Sidik saxlamayan xəstələrə verirlər. Əzilmişi, qızılyelin dərmanıdır.

Milçək

- Kərə yağına qatıb, pisyaralara bağlayırlar.

Zəli

- Simləmiş yaralara, qan artıqlığında bədənin müxtəlif yerlərinə qoyurlar.

İNSAN MƏNŞƏLİ RESEPTLƏR

İnsan sidiyi

- Qanverən və irinli yaraya insan sidiyi damızdırılır.
- İtdirsəyinə, subay kişi sidiyi vurulur.
- Xiyarəng sidiklə kompres edilir.

Qadın südü

- Qulaq və göz ağrılarında, qız anasının südü məlhəmdir.
- Qadın südü bişməcənin də dərmanıdır.

MƏİŞƏT MƏNŞƏLİ RESEPTLƏR

Kirman parçası

- Külünü, quyruq yağına qatıb, tampon edib, yumurtalıq iltihab–larının qarşısını alırlar.

Qanovuz

- Külü, kərə yağına qarışdırılıb, göbək qanaxmasında göbəyə bağlanır.
- Külü, burun qanaxmasında buruna çəkilir.

Qədəh (parça növü)

- Köy qədəhin külü, sarıkökə qatılıb, ağız yeyilməsində ağıza səpilir, qan kəsmək üçün yandırılıb, isti-isti, yaraya basılır.

Sürmə

- Yeni doğulmuş uşağın göbək qanaxmasını kəsmək üçün göbəyə sürmə çəkilir.
- Göz pis görəndə, gözdən su gələndə, göz qızaranda gözə sürmə çəkilir.

Xına

- Piylə qarışdırılıb hova bağlanır.
- Xına, istiotu, neft, şahdərən ilə qarışdırılıb, başgicəllənməsində başa yaxılır.
- Şətərə ilə birlikdə dəmirova çəkilir.
- Mal ödü ilə qarışdırılıb, sevdayelindən ötrü məlhəm düzəldilir.
- Qarauş (dırnaq əti xəstəliyi) xına ilə sağaldılır.
- Quru xına, sarıyaraya da dərmandır.

Sabun

- Qəbizlikdə sabunla imalə etmək xeyirlidir.
- Uşağaqalmanın qarşısını almaq üçün cinsi əlaqədən sonra uşaqlığa sabun ötürülür.

- Sabunla balı qarışdırıb çibana bağlayanda fayda verir.

Kibrit

- Kibritin alışqan kağızı dolamaya bağlanır.
- İmalə etmək üçün kibrit uclarından istifadə edirlər.
- Dişağrısında dişə, kibritucu qoyurlar.

Qurum

- Təndir qurumu yağa qatılıb, qotura çəkilir.
- Qurum yaraya basılır ki, yaranın qanı qurusun.
- Qurum göydaş, xına, inək yağı ilə qarışdırılıb keçəl başa çəkilir.

Müştük kiri

- Dəmirova çəkilir.
- Dişağrısını kəsmək üçün dişə qoyulur.

Qazanqarası

- Qazanqarası, qurut və yağa qatılıb, sarıyaraya çəkilir.

YEMƏK VƏ ƏDVİYYA MƏNŞƏLİ RESEPTLƏR

Ayran

- Zəhərlənmələrdə və istilikvurmada faydalıdır.

Süzmə

- Öyüməni kəsir.

Şərbət

- Məxmərəyin qarşısını alır.

Yağ

- Qəbizlikdə bitki yağı içmək faydalıdır.
- İstiliyi azaltmaq üçün xəstənin əlinə, ayağının altına yağ çəkilir.
- Bitki yağı, yanığın sağalmasına kömək edir.

Quymaq

- Zahılıq dövrünün xəta-bəlasız keçməsi və uşaqlığın tez yığılması üçün faydalıdır.
- Dişağrısında dişə, göbək qanaxmasında göbəyə quymaq bağlanır.

Şəkər

- Dilə pay çıxanda nabat əzilib ağıza səpilir.
- Qanı kəsmək üçün yaraya qənd əzib tökürlər.
- Qənd yanığını su ilə qarışdırıb içəndə ishalı kəsir.

Kəlləqənd

- Zəncəfil, istiot, yarpız qurusu kəlləqəndlə birlikdə əzilib ağıza səpilir ki, ağız yarası sağalsın.

Çay

- Gözə qan gələndə gözə çay xıltı bağlanır.

- İshalda qara çay, nanə, qənd döyülüb yumurtaya səpilir və yeyilir.
- Qadın qanaxmasında qara çay düyü ilə döyülüb, bir xörək qaşığı miqdarında xəstəyə verilir.

Zəncəfil

- Başağrısında, zəncəfili isladıb başa çəkirlər.
- Sancıda, başağrısında, öskürəkdə zəncəfil çayı içilir
- . Babasildə zəncəfili balla qatıb, tampon edirlər.

Darçın

- Öskürəkdə, sancılanmalarda darçın çayı içmək faydalıdır.

Mixək

- Ağızgəlməsində mixək unu ağıza səpilir.
- Mixək, üzərliklə birlikdə dişağrısını kəsir.

Lumuduzu

- Qan təzyiqini aşağı salmaq, qusmanı kəsmək üçün lumuduzu çayı içilir.

Yercövüzü

- Yel xəstəliyində yercövüzünü əzib, ağrıyan yerə sürtürlər və ya yercövüzü dəmləməsi içirlər.

İstiot

- Dişağrısını kəsir. Bala qarışdıranda başağrısını da kəsir.

Hil

- Sancını kəsir.

Sarıkök

- Sarıkök, yumurtanın sarısı və yağla qarışdırılıb, irinləmiş yaralara, ilan sümüyü batmış yerə bağlanır.

MİNERAL MƏNŞƏLİ RESEPTLƏR

Gil

- Başı gillə yuyurlar ki, saç uzansın.

Saxsı

- Döyülmüşü suçiçəyinə, uçuğa, sarıyaraya dərmandır.

Su

- Baş ağrıyanda yatmamışdan qabaq yarım stəkan ilıq su içirlər.
- Xanəzirdə, su qaynadılır, dəsmal həmin su ilə isladılıb, xanəzirin üzərinə qoyulur. Buna, el arasında "xanəziri qorxutmaq" deyirlər.

Qar

- Qar yeyirlər ki, yaddaş möhkəmlənsin.
- Qarı, doşabla qarışdırıb yemək beyin qurdunu salır, - deyirlər.

Zəy

- Zəyi isladıb pambıqla gözə qoyurlar, göz ağrısını kəsir.
- Boğaz gələndə zəyi əzib boğaza səpirlər.
- Zəyi, göydaş, kükürd və sarı yağla qarışdırıb başa sürürlər ki, keçəlliyin qarşısını alsın.
- Zəy, mis qazanının qarası və tüpürcəklə qarışdırılıb sarıyaraya yaxılır.

Göydaş

- Göydaşı, qara neft və zəylə qarışdırıb sarıyaraya çəkirlər.
- Döyülmüş zəy, qaşınmaya, dəmirova, keçəlliyə dərmandır.
- Göydaşı sarı yağla qarışdırıb, bədənin qotur yerlərinə çəkirlər.

Suvaq

- İnaq olmuş adamın başı çərtilir, üstünə suvaq səpilir.
- Bu, bişməcəyə də xeyirlidir.

Torpaq

- Keçəllik xəstəliyi tutmuş adamın tükləri yolunur, yerinə xam torpaq səpirlər.

- Köhnə kəsək qurusu qaynadılır, səpkisi olmayan qızılcalı uşaq bunun buxarına verilir.
- Qanı kəsmək üçün bəzən yaraya torpaq səpilir.
- Yağla qarışdırılmış xam torpaq meningiti sağaltmağa kömək edir.

Qum

- Yel xəstəliyində isti quma düşürlər.

Neft

- Neftlə qarışdırılmış xəmir, hovlara, simləmiş yaralara bağlanır.
- Qara neft balla birlikdə yel ağrılarını azaldır.
- Qara neft, sarı yağla birlikdə, ilıq şəkildə qulağa salınır ki, qu–lağın ağrısı kəssin.
- Qara, kirli yunun üstünə qara neft və çiy yumurta töküb ishalda düzbağırsağa ötürürlər - ishal kəsilir.
- Qulunc xəstəliyində qulunc neştərlənir, sonra qan çıxan yerə, içərisində neft olan butulka qoyulur.
- Uşaqlarda bizquyruğunu tökmək üçün ağ neft düzbağırsağın çıxacağına qoyulur.
- Xoruzəngdə neft içmək faydalıdır.

Kükürd

- Qoturluqda kükürd, sarı yağa qatılıb, qotur nahiyəyə çəkilir.

Naşatır

- Boğaz gələndə naşatırla basılır.
- Dişdibi yaralarında, ağızgəlmədə ağıza naşatır spirti səpilir.

Spirt

- Ağıza spirt çilənir ki, dişdibi qansızmalar kəssin.
- Yeldən ağrıyan əzələlərə spirt vurulur.

Qızıl

- Qızıl pul, suya salınır, məxmərəkli xəstə həmin suda çimiz–dirilir. Sarılıqda, zoba bədənə qızıl bağlanır.

Qırmızı mərcan

- Uşaqlıq qanaxmasında qırmızı mərcanı döyüb, yağla qarışdırıb, xəstəyə yaladırlar.

Qarğaduzu

- Qarğaduzunu əzib, boğazağrısında boğaza sürtürlər.

Mis

- Mis, dəmirovun müalicəsinə kömək edir.
- Qızılcada, gözün üstünə mis pul bağlanır.

Qurğuşun

- Döyülmüş qurğuşun, xanəzirə dərmandır.

SON SÖZ

Türkəçarədə xəstəliklərin səbəbləri bəzən qeyri-obyektiv şəkildə izah edilib və diaqnozlaşdırma düzgün aparılmır. Nəticədə xəstəlik daha da ağırlaşır və xəstəni sağaltmaq çətinləşir. Türkəçaraçi adı altında ayrı-ayrı fırıldaqçılar özlərindən müxtəlif "reseptlər" təklif edirlər ki, bu da çox zaman xoşagəlməz vəziyyətlərə gətirib çıxarır. İnfeksion xəstəlikləri ovsunla müalicə etmək zərərli nəticələrə səbəb olur. Ovsun ayinlərində xəstəyə verilən insan nəcisi, insan sidiyi, aybaşı qanı və s. xəstədə əlavə patoloji hallar yaradır. Zərərverici ovsunçuluğun qarşısını almaq üçün heç şübhəsiz, əhali arasında səhiyyə mədəniyyətini yüksəltmək, səhiyyə maarifini kütlə tələbləri səviyyəsində qurmaq, profilaktik müalicə şəbəkələrini artırmaq, dispanserizasiya işini düzgün qurmaqla xəstələnmə hallarını azaltmaq, eyni zamanda ovsuntəbabətinin, bütövlükdə türkəçarənin əsl mahiyyətini doğru-düzgün açıb göstərmək lazımdır.

Türkəçarənin əsasında insanın xəstəlik, doğum və ölüm proseslərini dərk etmək cəhdləri durmuşdur. Türkəçaraçi insanı əhatə edən canlı və cansız təbiətin müalicəvi effektini kor-koranə də olsa, kəşf etmiş və empirik müalicə imkanlarını genişləndirmişdir. Ovsunçunun, türkəçarəçinin simasında professional həkimliyin əsası qoyulmuşdur.

Müalicə məqsədilə keçirilən ayinlərdə incəsənətin rəqs, rəsm, musiqi kimi növlərinin ilkin rüşeymləri yaranmışdır. Türkəçarənin ayrı-ayrı müalicə vasitələrində qədim çağlardan xəbər verən müxtəlif inamlar və sınamalar qorunub saxlanmış, türkəçarə tövsiyələri yalnız tibbi yox, həm də mifoloji və etnoqrafik mənbəyə çevrilmişdir.

İZAHLI LÜĞƏT

A

Aminolon – Beyin fəaliyyətini yaxşılaşdırmaq üçün istifadə olunan maddə. Kitabda mal kəlləsinin iç dərisində olduğu göstərilir.

Asfiksiya – Boğulma nəticəsində yaranan həyati təhlükəli vəziyyət.

B

Bədnəzər – İnama görə, bəzi insanların baxışları ilə xəstəlik və ya bədbəxtlik törətməsi.

Bizquyruğu – Uşaqlarda bağırsaq qurdlarının xalq arasında işlənən adlarından biri.

C

Cadugər – Ovsun və sehrlə məşğul olduğuna inanılan şəxs.

Cin – Xalq təsəvvüründə görünməz ruhani varlıq.

Cindar – Cinləri çağırdığı və ya onlarla əlaqə yaratdığına inanılan ovsunçu.

Ç

Çilə – Müəyyən insanların təması nəticəsində xəstəlik törətdiyinə inanılan mistik təsir.

Çiləbasma – Çilə nəticəsində yarandığı düşünülən xəstəlik və ya pozuntu.

Çor – Türk mifologiyasında xəstəlik törədən ruh.

Çər – Heyvanlarda xəstəlik yaradan ruh.

D

Dağlama – Qızdırılmış metal və ya alətlə xəstə nahiyənin yandırılması yolu ilə müalicə.

Diaqnostika – Xəstəliyin müəyyən edilməsi prosesi.

Differensasiya – Bir xəstəliyin digərindən fərqləndirilməsi.

Dispanserizasiya – Əhalinin sağlamlığına daimi nəzarət sistemi.

E

Empirik təbabət – Təcrübəyə əsaslanan, müşahidə yolu ilə formalaşmış təbabət.

Etnologiya – Xalqların mənşəyini, həyat tərzini və mədəniyyətini öyrənən elm.

Etnoetiologiya – Xalq təsəvvüründə xəstəliklərin yaranma səbəbləri haqqında baxışlar.

Etnotəbabət – Müəyyən xalqa məxsus xalq təbabəti.

Ex juvantibus – Müalicənin nəticəsinə əsasən diaqnoz qoyma üsulu.

H

Hal anası – Zahı qadınlara və körpələrə zərər verdiyinə inanılan mifoloji qadın ruhu.

Hallüsinasiya – Mövcud olmayan hadisə və ya obyektlərin görülməsi və ya eşidilməsi.

Həmayil – Qoruyucu məqsədlə boyundan və ya paltardan asılan ovsun vasitəsi.

Hipnoz – Təlqin yolu ilə yaradılan xüsusi psixi vəziyyət.

Hipnoterapiya – Hipnozdan istifadə etməklə müalicə üsulu.

Hipotrofiya – Uşağın inkişafdan geri qalması və zəif böyüməsi.

İ

İmitativ ovsun – Oxşatma prinsipi əsasında qurulan ovsun.

İnfarkt – Ürək əzələsinin qan təchizatının pozulması nəticəsində yaranan xəstəlik.

İnsult – Beyin qan dövranının kəskin pozulması.

K

Kahin – Qədim dini ayinləri icra edən şəxs.

Kampolon – Heyvan mənşəli bioloji aktiv maddə.

Klassifikasiya – Xəstəliklərin qruplaşdırılması.

Kontagioz ovsun – Toxunmuş əşya ilə insan arasında əlaqənin davam etdiyinə əsaslanan ovsun.

L

Loğman – Xalq təbabəti ilə məşğul olan təcrübəli şəxs.

M

Mifologiya – Miflər və qədim inanclar sistemi.

Müalicə ovsunu – Mövcud xəstəliyin sağaldılması məqsədi daşıyan ovsun.

N

Nazologiya (Nozologiya) – Xəstəliklərin adlandırılması və sistemləşdirilməsi haqqında elm.

O

Ongon – Türk mifologiyasında tayfanın və ya nəslin qoruyucu ruhu.

Ovsun – Xəstəlikdən qorumaq və ya müalicə etmək məqsədilə söz, hərəkət və ayinlərdən istifadə.

Ovsunçu – Ovsun ayinlərini icra edən şəxs.

P

Parasimpatik sinir sistemi – Orqanizmin dincəlmə və bərpa proseslərini tənzimləyən sinir sistemi.

Profilaktik ovsun – Xəstəliyin qarşısını almağa yönəlmiş ovsun.

Psixoeffekt – Psixoloji təsir nəticəsində yaranan effekt.

Psixoterapiya – Psixoloji üsullarla müalicə.

Q

Qanalma – Müalicə məqsədilə qan çıxarma üsulu.

Qara ovsun – Zərər vermək məqsədi daşıyan ovsun.

Qızıl yel (Erzipelas) – Dərinin infeksion iltihabi xəstəliyi.

R

Ritual – Müəyyən qaydalara uyğun icra edilən ayin.

S

Sakremental saylar – Müqəddəs hesab olunan rəqəmlər (3, 7, 9, 40).

Simpatik sinir sistemi – Orqanizmi fəallaşdıran sinir sistemi.

Şaman – Ruhlarla əlaqə yaratdığına inanılan qədim kahin.

Şəppə – Epilepsiya və qıcolma ilə əlaqələndirilən mifoloji ruh.

Şeşə – Yeni doğulmuş uşaqlarda xəstəlik törətdiyinə inanılan mifoloji varlıq.

Şəyatin – Şeytanlar, bəd ruhlar.

T

Tabu – Qadağan edilmiş, müqəddəs sayılan anlayış və ya obyekt.

Talisman – Qoruyucu ovsun əşyası.

Totem – Tayfanın ulu əcdadı hesab edilən canlı və ya cansız varlıq.

Türkəçarə – Azərbaycan xalq təbabətinin ənənəvi adı; türk xalq müalicə sistemi.

V

Vurğun – Xalq inamına görə, qəfil ölüm və ya ağır xəstəlik törədən ruh.

Y

Yel – Xalq təbabətində müxtəlif xəstəliklərin ümumi adı və ya onları törədən ruh.

Z

Zahı – Doğuşdan sonrakı dövrdə olan qadın.

Zahılıq – Qadının doğuşdan sonrakı dövrü.

Zərərverici ovsun – İnsanlara xəstəlik və ya bədbəxtlik gətirmək məqsədi daşıyan ovsun.

Ziyil – Dəridə əmələ gələn kiçik xoşxassəli törəmə.

TÜRKƏÇARƏÇİLƏR (INFORMATORLAR) HAQQINDA MƏLUMAT

1. **Yusifova Fatma Baxşəli qızı.** 62 yaşında, ibtidai təhsilli, Culfa rayonunun Xanağa kəndi.
2. **Quliyeva Mehriban Cəfər qızı.** 57 yaşında, natamam təhsilli, Culfa rayonunun Ərəfsə kəndi.
3. **İbrahimova Həqiqə İbrahim qızı.** 96 yaşında, savadsız, Culfa rayonunun Bənəniyar kəndi.
4. **Əliyeva Sara Kərim qızı.** 75 yaşında, ibtidai təhsilli, Culfa rayonunun Kırna kəndi.
5. **Tarverdiyeva Güldəstə Bədəl qızı.** 70 yaşında, təhsilsiz, Culfa rayonunun Nəhəcir kəndi.
6. **Bayramova Şamama Məmmədəli qızı.** 100 yaşında, təhsilsiz, Şahbuz rayonunun Keçili kəndi.
7. **Vəliyeva Gülnaz İman qızı.** 97 yaşında, təhsilsiz, Ordubad rayonunun Aşağı Əylis kəndi.
8. **Ağayeva Fatma Əkbər qızı.** 90 yaşında, təhsilsiz, Ordubad rayonunun Kotam kəndi.
9. **Əzimov Kərim Cəlal oğlu.** 1907-ci il təvəllüdlü, ibtidai təhsilli, Ordubad şəhəri.
10. **Əliyeva Mehrənsə Cəfər qızı.** 95 yaşında, təhsilsiz, Ordubad rayonunun Kələki kəndi.
11. **Babayeva Dilbər Abdulla qızı.** 1917-ci il təvəllüdlü, ibtidai təhsilli, Babək rayonunun Təzəkənd kəndi.
12. **Həsənova Əfruz Bağır qızı.** 80 yaşında, ibtidai təhsilli, Babək rayonunun Zeynəddin kəndi.
13. **Əbilova Lalabəyim İbrahim qızı.** 90 yaşında, savadsız, Şərur rayonunun Dəmirçi kəndi.
14. **Talıbova Bülbül İsmayıl qızı.** 100 yaşında, ibtidai təhsilli, Şərur rayonunun Şəhriyar kəndi.
15. **Hüseynova Pərzad Zülfüqar qızı.** 1919-cu il təvəllüdlü, ibtidai təhsilli, Şərur rayonunun Havuş kəndi.